Günəş Şərqdən doğur!

❐ № 155 (5436), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 31 avqust 2021-ci il (çərşənbə axşamı)



## 39 nəfər vəfat edib

Azərbaycanda daha 3 107 nəfər koronavirusa yoluxub

(səh.8)



### Ərdoğan: "Düşmənə qorxu, dosta güvən verən bir struktur quracağıq"

**"Düşmənə qorxu, dosta güvən verən bir struktur quracağıq".**

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə Milli Müdafiə Nazirliyinin "Ay Yıldız" layihəsinin təməlqoyma mərasimində çıxışı zamanı deyib.

(səh.2)

### Ceyhun Bayramov Rusiyadan olan yeni həmsədrlə görüşüb



İqor Xovayev cari səfərinin tanışlıq xarakteri daşıdığını söyləyib

(səh.2)

# "Biz bundan sonra Şuşada əbədi yaşayacağıq"

## Prezident İlham Əliyev: "Həyat göstərdi ki, ədalət var, sadəcə olaraq dözümlü olmaq lazımdır, ədalətə nail olmaq üçün çalışmaq lazımdır"

**Avqustun 30-da Şuşada Vaqif poeziya günləri şairin doğma şəhərində yenidən təşkil olunub. Rəsmi açılışda Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər.**

Dövlət başçısı çıxışında bildirib ki, Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və yenidən biz nəfəs almağa başlamışıq: "Əziz dostlar, təxminən 40 il bundan əvvəl, bax, bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum.



(səh.2)

# Artıq heç nə əvvəlki kimi olmayacaq

## "Akınçı" həm də Azərbaycanın gücüdür





(səh.8)

- **Yazıçılar Birliyinin növbəti qurultayı oktyabrda Şuşada keçiriləcək** (səh.2)
- **İtkin düşmüş 7 nəferin taleyi barədə məlumat verilmir**
  Ermənistan insanlıq əleyhinə çox ciddi cinayətlər törədib, beynəlxalq təşkilatlar hələ də susur (səh.3)
- **Zəngəzur dəhlizi açılacaq**
  Çünki bu məsələ təkcə Ermənistan Azərbaycan məsələsi deyil (səh.7)
- **Pandemiya ixtisas seçiminə təsir edib**
  Kompüter texnologiyaları, maliyyə, tibb və hüquq ixtisasları öncüllüyünü bu il də qoruyub saxlayıb (səh.13)



## Yazıçılar Birliyinin növbəti qurultayı oktyabrda Şuşada keçiriləcək

**Azərbaycan Yazıçılar Birliyinin (AYB) növbəti qurultayı oktyabrda Şuşada keçiriləcək.**

APA-nın məlumatına görə, qurultayın Şuşada keçirilməsi təklifi ilə AYB sədri Anar çıxış edib.

Prezident İlham Əliyev təklifi razılıqla qarşılayıb.

Anar qurultayda xaricdən də qonaqların iştirak edəcəyini deyib.

"Yaxşı olar. Yer də var burada keçirmək üçün", - deyə Prezident qeyd edib.

Anar dövlət başçısına minnətdarlığını bildirib.

*Qeyd edək ki, AYB-nin ali orqanı olan qurultay beş ildən bir çağırılır. Qurultay sonuncu dəfə 2014-cü keçirilib. Ötən il aprel ayında çağırılması planlaşdırılan XIII qurultay pandemiya ilə əlaqədar oktyabr ayına keçirilmişdi.*

## Ceyhun Bayramov Rusiyadan olan yeni həmsədrlə görüşüb

### İqor Xovayev cari səfərinin tanışlıq xarakteri daşıdığını söyləyib



**Avqustun 30-da xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Minsk Qrupunun Rusiya Federasiyasından olan yeni həmsədri İqor Xovayevi qəbul edib.**

Xarici İşlər Nazirliyindən "Şərq" ə verilən məlumata görə, nazir Ceyhun Bayramov qarşı tərəfi təyinatı münasibətilə təbrik edib.

İqor Xovayev cari səfərinin tanışlıq xarakteri daşıdığını söyləyib.

Nazir Ceyhun Bayramov qarşı tərəfə bölgədəki cari vəziyyət, Azərbaycanın münaqişə sonrası mərhələdə həyata keçirdiyi tədbirlər, işğal faktorunun aradan qaldırılması ilə Ermənistanla beynəlxalq hüquq prinsipləri əsasında münasibətlərin normallaşdırılmasının mümkünlüyü, habelə qarşı tərəfin sərgilədiyi revanşist mövqeyin heç bir perspektivinin olmaması, tərəflərin yaranmış əməkdaşlıq imkanlarından faydalanmasının vacibliyi barədə məlumat verib.

Tərəflər, üçtərəfli bəyanatdan irəli gələn müddəaların həyata keçirilməsi və etimadın qurulması tədbirlərinin reallaşması ətrafında fikir mübadiləsi aparıblar.

## Ölkədən maneəsiz çıxış təmin olunmalıdır

### BMT Əfqanıstanla bağlı qətnamə qəbul edib



**BMT Təhlükəsizlik Şurası Əfqanıstandan yerli sakinlərin və əcnəbi vətəndaşların maneəsiz çıxışla bağlı qətnamə qəbul edib.**

Bu barədə "Report" TASS-a istinadən xəbər verir. Sənədə 13 üzv səs verib, Rusiya və Çin bitərəf qalıb. Qətnamə, həmçinin Əfqanıstana humanitar yardımın göstərilməsi üçün səylərin gücləndirilməsini tələb edir.

Avqustun 30-da Şuşada Vaqif poeziya günləri şairin doğma şəhərində yenidən təşkil olunub. Rəsmi açılışda Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər. Dövlət başçısı çıxışında bildirib ki, Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və yenidən biz nəfəs almağa başlamışıq: "Əziz dostlar, təxminən 40 il bundan əvvəl, bax, bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum.





# "Biz bundan sonra Şuşada əbədi yaşayacağıq"

## Prezident İlham Əliyev: "Həyat göstərdi ki, ədalət var, sadəcə olaraq dözümlü olmaq lazımdır, ədalətə nail olmaq üçün çalışmaq lazımdır"



Şaxtalı-qarlı havada Vaqifin məqbərəsinin açılışı idi. Ondan sonra ikinci dəfə 1982-ci ilin iyul ayında - iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişdim. O vaxt Vaqif poeziya günləri keçirilirdi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını biz qeyd edirik. Vaqif poeziya günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bəziləri hesab edə bilər ki, bu, təsadüfdür. Ancaq mən hesab edirəm ki, burada böyük rəmzi məna var, tarix təkrarlanır. Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və yenidən biz nəfəs almağa başlamışıq".

**"Əgər Şuşa erməni şəhəri idisə, niyə belə vəziyyətdə idi?"**

**Ölkə rəhbəri qeyd edib ki, Şuşanın bərpası ilə bağlı ilk səfəri çərçivəsində bütün lazımi göstərişlər verilib.** Yanvar ayından bu günə qədər, 7 ay ərzində artıq çox böyük işlər görülüb: Ermənilər nə qədər çalışsalar da, yenə də Şuşanı erməni şəhəri kimi təqdim edə bilmədilər və əgər bu, erməni şəhəri idisə, niyə belə vəziyyətdə idi, niyə dağılmış vəziyyətdə idi, niyə bir dənə bina tikilməyib? Üç-dörd erməni məmurun yeni villalarından başqa bir dənə də yeni bina tikilməyib. Köhnə binalar hamısı dağıdılıb, tarixi binalar sökülüb. Şuşanın bərpasına 14 yanvardan başlanıb və qısa müddət ərzində böyük işlər görülüb. İlk növbədə, yol çəkilib. İndi gəldiyiniz Zəfər yolu nə vəziyyətdə idi, biz onu 14 yanvarda gördük. İndi isə artıq asfalt yol tikilib və bu, elə Zəfər yoludur. Magistral yol da çəkilir".

**"Polad atasının evini bərpa etdi..."**

**Dövlət başçısı qeyd edib ki, Şuşada üç məsciddə təmir-bərpa işləri gedir.** Yuxarı Gövhər Ağa məscidinin təmiri demək olar ki, bitmək üzrədir: "Saatlı və Aşağı Gövhər Ağa məscidlərinin təmiri ilə bağlı göstərişlər verildi. Bu məscidlərin təmirini yenə də Heydər Əliyev Fondu öz üzərinə götürmüşdü. Natəvan bulağı bərpa edildi, indi su gəlir. Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular. Əgər bu, erməni şəhəri idisə, nə üçün siz bu bulaqları qurudursunuz? Ondan sonra "Xarıbülbül" oteli istifadəyə verildi və artıq may-iyun aylarında ilk qonaqlarını qəbul etdi və digər addımlar atıldı. Ermənilər tərəfindən güllələnmiş dahi şəxsiyyətlərimizin - Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri gətirildi. Mənim tərəfimdən mərkəzi meydanda qoyuldu və dünən Şuşanın dirçəlişinin növbəti mərhələsi idi. Qeyd etdiyim kimi, Vaqifin məqbərəsi, Vaqifin büstü yenidən açıldı. Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu, onu da mənfur düşmən dağıtmışdı. Üzeyir Hacıbəylinin dağılmış evinin bərpası ilə bağlı göstəriş verildi. Dünən Polad Bülbüloğlu ilə və onun oğlu, Bülbülün nəvəsi ilə birlikdə Bülbülün evinin açılışını biz qeyd etdik. Polad atasının evini bərpa etdi, indi çox gözəl muzey yaradılmışdı".

**"Dağlıq Qarabağ respublikası" anlayışı yoxdur"**

**Prezident bəyan edib ki, "Qarabağ" oteli əsaslı təmirdən sonra yenidən qonaqların üzünə öz qapılarını açdı:** "İşğal dövründə "Qarabağ" oteli nə gündə idi, onu biz işğaldan sonra görmüşdük. Cəmi iki mərtəbəsi işləyirdi, nə su, nə işıq var idi. Bərbad vəziyyətdə idi. O da bərpa edildi və hesab edirəm ki, bu tədbirlərin içində ən önəmlisi yeni yaşayış kompleksinin təməl daşının qoyulmasıdır". Dövlət başçısı qeyd edib ki, yeni otel beşulduzlu otel olacaq: "Orada 150 otaq olacaq, hazırda Şuşada "Qarabağ" və "Xarıbülbül" otellərində 150 otaq mövcuddur, 300 otaq olacaqdır, böyük konfrans zalı və tədbirlər üçün yerlər, beşulduzlu otel, onun da yeri də seçildi mənim tərəfimdən, həmin yerdə mənfur düşmən dırnaqarası "Dağlıq Qarabağ respublikası"nın qondarma parlamenti üçün bina inşa edirdi. O da bizə sataşmaq idi. "Dağlıq Qarabağ respublikası" anlayışı yoxdur. Artıq o binanın bünövrəsi qoyulub və daş işləri artıq tamamlanmışdı. Mənim göstərişimlə bu şeytan yuvası darmadağın edildi".

**"Biz Şuşanı dirçəldirik"**

**Ölkə rəhbəri deyib ki, həm keçmiş məcburi köçkünlər, həm bütün Azərbaycan xalqı, o cümlədən də özü dəfələrlə fikirləşib ki, dünyada ədalət yoxdur.** Çünki ədalət olsaydı, biz bu vəziyyətə düşməzdik: "Mən də belə fikirdə idim. Ancaq həyat göstərdi ki, ədalət var, sadəcə olaraq dözümlü olmaq lazımdır, ədalətə nail olmaq üçün çalışmaq lazımdır. Bəli, ədalət bərpa edildi, biz bu gün Şuşadayıq və bundan sonra Şuşada əbədi yaşayacağıq". Dövlət başçısı bildirib ki, festivallar, poeziya günləri, mədəni tədbirlər və bir çox başqa tədbirlər artıq keçirilir və bundan sonra da keçiriləcək: "Demişdim ki, Şuşanı biz dirçəldəcəyik. Bu da baş verir, biz Şuşanı dirçəldirik. Yaşasın Şuşa! Yaşasın Qarabağ! Yaşasın Azərbaycan!".

**"Şuşanın Azərbaycan tarixində çox böyük rəmzi mənası var"**

**Dövlət rəhbəri vurğulayıb ki, o vaxt Şuşa Dağlıq Qarabağ Muxtar Vilayətinin bir hissəsi idi.** Uzun illər ermənilər Şuşaya iddia edirdilər, Şuşanı erməni şəhəri kimi qələmə verməyə çalışırdılar: "Halbuki, bunun üçün heç bir tarixi, mədəni əsas yox idi. Onu da nəzərə almalıyıq ki, Molla Pənah Vaqif təkcə şair yox, eyni zamanda, Qarabağ xanının vəziri idi. Sovet dövründə sovet ideologiyası, sovet hökumətinin tarixlə bağlı yanaşması belə idi ki, xanlıqlar tarixin qara ləkəsi kimi qələmə verilirdi. Bütün bunlara baxmayaraq, Ulu Öndərin iradəsi və qətiyyəti nəticəsində bu məqbərə ucaldılmışdı və bir daha Şuşanın Azərbaycan şəhəri kimi təsdiqi öz yerini tapmışdı. Əfsuslar olsun ki, Şuşa işğala məruz qalandan sonra bütün tarixi abidələr, mədəni abidələr, o cümlədən Vaqifin məqbərəsi vandallar tərəfindən dağıdılmışdı. Şuşanın işğalı xalqımızın böyük faciəsi idi. Çünki Şuşa Azərbaycan mədəniyyətinin ocağıdır. Şuşanın Azərbaycan tarixində çox böyük rəmzi mənası var. Şuşa Qarabağın tacıdır. Şuşanın işğalından sonra digər rayonlar, digər şəhərlər işğala məruz qaldı".

**İsmayıl**



# Əfqanıstandan sonra sülhməramlılarımızla bağlı yeni təklif yoxdur

## Ədalət Verdiyev: "Məcbur deyil ki, bir ölkə hansısa başqa bir ölkədə sülhməramlı kontingentə sahib olsun"

NATO qüvvələri tərkibində 2002-ci ildən Əfqanıstan İslam Respublikasında öz missiyasını başa çatdıran Azərbaycanın sülhməramlı kontingenti artıq Vətənə döndü. Məlumdur ki, 120 nəfərdən ibarət Azərbaycan sülhməramlısı Əfqanıstan İslam Respublikasının Kabil Beynəlxalq Hava Limanında xidməti vəzifələrini yerinə yetirirdi.

Sülhməramlı qüvvələr tərkibində olmuş tağım komandiri, gizir Sahil Həşimov KİV-ə açıqlamasında bildirib ki, Azərbaycanın hərbi qulluqçuları Kabil hava limanında mülki şəxslərin təxliyəsinin təşkilində iştirak edib. Mülki şəxsləri humanitar yardımla - yemək və su ilə təmin ediblər. S.Həşimov Azərbaycan Ordusunda qulluq etməkdən qürur duyduğunu da qeyd edib. Təbii ki, hər bir azərbaycanlı da ordumuzun əsgər və zabitlərinin harada qulluq etməsindən asılı olmayaraq onlarla fəxr edir. Sülhməramlı qüvvə olmaq isə şübhəsiz ki, hərbi qulluqçuların üzərinə daha böyük məsuliyyət qoyur. Mülki əhalinin təhlükəsizliyini təmin etmək, döyüş bölgəsində düşmənlə üz-üzə gəlmək qədər çətin və şərəfli işdir. Vətənə qayıtmış Azərbaycan sülhməramlıları bundan sonra hansı missiyanı daşıyacaq, xidməti vəzifələrini hansı istiqamətdə davam etdirəcəklər?

**Hərbi məsələlər üzrə ekspert Ədalət Verdiyev "Şərq"ə açıqlamasında bildirdi ki, sülhməramlıların bundan sonrakı fəaliyyəti barədə danışmaq hələ tezdir:**

- Azərbaycanın Əfqanıstandakı sülhməramlı kontingenti bir bölükdən ibarət idi. Və NATO-nun başçılığı ilə həyata keçirilən "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasında iştirak edirdilər. Son proseslər zamanı isə Kabil Beynəlxalq Hava Limanının mühafizəsini yerinə yetirdilər. Bilirsiniz ki, sülhməramlılar Vətənə döndükdən sonra Kabil aeroportu raket hücumuna məruz qaldı. Bu fakt, bizim sülhməramlıların necə ağır şəraitdə fəaliyyət göstərdiyini bir daha təsdiq edir. Onsuz da Əfqanıstanı "imperiyalar qəbiristanlığı" adlandırırlar. Bu ölkəyə kimlər, hansı dövlətlər iddia etməyib ki?! Əfqanıstanda ötən əsrdən alovlandırılan atəş hələ də sönməyib, nə vaxt sönəcək, o da bilinmir. Qaldı bizim sülhməramlıların bundan sonrakı fəaliyyətlərinə, bu tək Azərbaycandan asılı məsələ deyil. Gərək hansısa ölkə sülhməramlı kontingent üçün müraciət etsin, müraciət olunan ölkə parlamentində müzakirələr aparılsın, sonunda ölkə Prezidenti hansısa ölkəyə sülhməramlı kontingentin iştirakı ilə bağlı qərarı təsdiqləsin. NATO-ya da belə bir müraciət daxil ola bilər. Yenə də məsləhətləşmələrlə bu məsələ həllini tapacaq. Məcbur deyil ki, bir ölkə hansısa başqa bir ölkədə sülhməramlı kontingentə sahib olsun. Ola da bilər, olmaya da. Bizim sülhməramlılar hazırda daimi yaşayış məntəqələrindədir. Gündəlik məşğələlərini, təlimlərini, döyüş hazırlığını davam etdirirlər. Azərbaycan sülhməramlıları ilə bağlı hələ ki, yeni təklif yoxdur. Təklif olarsa, dəyərləndiriləcək.

**Ə.Verdiyev qeyd etdi ki, Əfqanıstandakı Azərbaycan sülhməramlıları xidməti vəzifələrini tam başa vurub Vətənə qayıdıb:**

- Halbuki sülhməramlı qüvvələr tərkibində olan Ermənistan hərbi qulluqçuları siyasi vəziyyət dəyişən kimi, "Taliban"ın hücumunu görüb missiyalarını yarımçıq saxlayıb geri qayıtdılar. Azərbaycan sülhməramlıları isə sonadək vəzifələrini icra etdi, mülki şəxslərin təxliyəsində iştirak etdilər, əhaliyə yardım göstərdilər.

**Məlahət Rzayeva**

# İtkin düşmüş 7 nəfərin taleyi barədə məlumat verilmir

## Ermənistan insanlıq əleyhinə çox ciddi cinayətlər törədib, beynəlxalq təşkilatlar hələ də susur

"Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində 3890 nəfər itkin düşüb və onlardan 3171-i hərbçi, 719-u mülki şəxslərdir". Bu sözləri xarici işlər nazirinin müavini Elnur Məmmədov Beynəlxalq İtkinlər Günü ilə bağlı keçirilmiş konfrans zamanı deyib. Nazir müavini bildirib ki, Azərbaycan götürdüyü əsirlərlə beynəlxalq qanunlara uyğun davranır, əsirlərin ailələri ilə əlaqə saxlanması üçün şərait yaradır:






## Əsir və girov götürülmüş azərbaycanlıların çoxu kütləvi şəkildə qətlə yetirilib

"Ermənistanın azərbaycanlı əsir və girovlara etdikləri insanlığa qarşı cinayətdir. Ermənistan 267 mülki şəxsi əsir götürüb. O cümlədən 29 uşaq, 98 qadın, 112 yaşlı şəxs ermənilər tərəfindən girov götürülüb və geri qaytarılmayıb. Azərbaycanlı əsirlər çox pis şəraitdə saxlanılır, onların əksəriyyəti tab gətirməyərək ölür. Bu, insanlığa qarşı cinayətdir". E.Məmmədov bəyan edib ki, itkinlərin aqibətinə aydınlıq gətirilməsi barışıq prosesinə töhfə verə bilər: "Azərbaycan Ermənistanın işğalı nəticəsində itkin düşən şəxslərin aqibətinin araşdırılması üçün əlindən gələni əsirgəməyəcək. Bu məsələnin həlli iki ölkə arasında barışıq prosesinə də öz töhfəsini verə bilər. Azərbaycan bununla bağlı beynəlxalq hüququn bütün tələblərinə əməl edir".

**"Ermənistan itkin düşmüş şəxslərin saxlanılması faktını beynəlxalq təşkilatlardan gizlədir"**

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının katibi İsmayıl Axundov deyib ki, əsir və girov götürülmüş azərbaycanlıların çoxu kütləvi şəkildə qətlə yetirilib: "16 fevral 1994-cü ildə Ermənistan guya qaçmağa cəhd edən 8 azərbaycanlı əsirin öldürüldüyünü qeyd edib. Amma meyitlər üzərində aparılan araşdırmalar əsirlərin eyni silahdan gicgah nahiyəsindən atəş nəticəsində öldüyünü sübut edib. Bu kimi faktlar Ermənistanın azərbaycanlı əsirlərlə davranışlarını göstərir. Ermənistan Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərin saxlanılması faktını beynəlxalq təşkilatlardan gizlədir, onların taleyi barədə məlumat verməkdən imtina edir".

**"Yeniyetmə girovlardan donor kimi istifadə ediblər"**

İsmayıl Axundovun sözlərinə görə, Birinci Qarabağ müharibəsində digər diqqətçəkən faktlardan biri də ermənilərin yeniyetmə və gəncləri ailələrindən ayıraraq naməlum yerə aparmasıdır. O bildirib ki, girov götürüldükdən sonra əvvəlcə Xankəndi şəhərinə, daha sonra naməlum istiqamətə aparılan 9 nəfərin taleyi məlum deyil: "29 il keçməsinə baxmayaraq, Ermənistan tərəfi itkin və girovlarla bağlı heç bir məlumat vermir. Sağlam yeniyetmələrdən ermənilər böyük ehtimalla donor kimi, yaxud orqanlarını çıxarıb satmaq üçün istifadə ediblər. Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən əsir və girov götürülmüş 54 nəfərə baş çəkilib. Sonradan onların 17-si saxlandığı yerdə öldürülüb, cəsədləri təhvil verilib, qalanlarının taleyi bu günə qədər də naməlumdur. Beynəlxalq Qızıl Xaç Komitəsi ilə çərçivə sazişi üzərində iş davam edir. Sonuncu itkinin taleyi aydınlaşana qədər bu sahədə iş davam edəcək".

**"Bakıda və rayonlarda Birinci Qarabağ müharibəsinə aid 197 naməlum məzar var"**

Dövlət Komissiyasının katibi əlavə edib ki, Bakı və digər şəhər və rayonlarda Birinci Qarabağ müharibəsinə aid 197 naməlum məzar var: "Həmin məzarların vaxtilə GPS koordinatları çıxarılıb. Bu, həmin məzar yerlərinin yox olmaması və üzərlərində başqa qəbir, yaxud hər hansı inşaat işləri aparılmaması üçün edilib. Hazırda Hərbi Prokurorluq tərəfindən bu istiqamətdə Bakı və digər şəhər, rayonlarda intensiv şəkildə işlər aparılır. İşlərin nəticəsi barədə ictimaiyyətə əlavə məlumatlar veriləcək".

**"Ermənistan 29 uşaq, 98 qadın və 112 ahılı girov götürüb"**

Azərbaycanın İnsan Haqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva da bildirib ki, Ermənistanın 30 ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində çox sayda şəxs itkin düşüb. O deyib ki, əsir və itkin düşmüş şəxslərin ailələri onlar haqda məlumat almaq istəyir, Ermənistan isə beynəlxalq təşkilatların qəbul etdiyi qətnamələrə qarşı çıxır: "Ermənistan tərəfindən 29 uşaq, 98 qadın və 112 ahılın girov götürülməsi faktı müəyyən olunub". Ombudsmanın sözlərinə görə, əsirlikdən azad edilmiş şəxslərin ifadələrinə baxmayaraq, Ermənistan tərəfi əsir və itkin düşmüş şəxslərin taleyi ilə bağlı məlumat verməkdən imtina edir: "Beynəlxalq Qızıl Xaç Komitəsi Birinci Qarabağ müharibəsi dövründə əsir düşən 54 nəfəri qeydiyyata alıb. Amma Ermənistanın siyasi rəhbərliyi onların ölməsi ilə bağlı saxta məlumat yayıb. Ermənistanın siyasi və hərbi rəhbərliyi yalnız Birinci Qarabağ müharibəsi dövründə deyil, atəşkəs dövründə də azərbaycanlı mülki şəxsləri girov götürüb. Sosial şəbəkələrdə yayılan videolardan, erməni hərbçilərin ifadələrindən məlum olur ki, azərbaycanlı əsir və girovlara qarşı nalayiq hərəkətlər edilib, ölən əsirlərin nəşləri təhqir olunub".

**"Ermənistan beynəlxalq hüquq normalarını kobud şəkildə pozur"**

Ombudsman qeyd edib ki, İkinci Qarabağ müharibəsi dövründə erməni əsir hərbçilərlə görüşüb, onların hüquqlarını xatırladıb. O müqayisə üçün bildirib ki, Ermənistan tərəfindən azərbaycanlı əsir düşən hərbçilərin bu hüquqları təmin olunmayıb: "Bu faktlarla bağlı hesabat hazırlayıb, beynəlxalq təşkilatlara göndərmişəm. Ermənistan beynəlxalq hüquq normalarını kobud şəkildə pozur. İtkin düşmüş şəxslərlə bağlı onların ailə üzvlərinə məlumat vermək beynəlxalq prinsiplərin tələbidir. Bura itkin düşmüş şəxslərlə bağlı məlumatlar da daxildir. Ermənistan indiyədək İkinci Qarabağ müharibəsində itkin düşmüş 7 nəfərin taleyi barədə məlumat vermir. Qaldırdığımız bütün faktlar insanlıq əleyhinə çox ciddi cinayətlərdir və konkret qərarların qəbulunu tələb edir. Azərbaycan respublikası bu gün də ədalətsiz hərbi təxribatların acı nəticələrindən əziyyət çəkir. Dünya ictimaiyyəti və beynəlxalq təşkilatları Ermənistanı ötən dövr ərzində əsir və itkin düşmüş, öldürülmüş azərbaycanlıların taleyi ilə bağlı məlumat verməyə məcbur etməyə çağırıram".

**"Əsirlərin ailələrini məlumatlandırmaq üçün əlimizdən gələni edirik"**

Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Arian Bauer deyib ki, itkin düşmüş şəxslərin ailələri öz yaxınları barədə xəbər gözləyir. Bauer qeyd edib ki, BQXK əsirlər barəsində məlumatları dəqiqləşdirmək və onların ailələrini məlumatlandırmaq üçün əlindən gələni edir: "Dünyada itkin düşən şəxslərin sayı çoxdur. Bizim təşkilatın məqsədi itkin düşən şəxslərin aqibətinə aydınlıq gətirməkdir. Biz onların ailələri üçün bu itkilərin nə demək olduğunu yaxşı bilirik. Biz həmin ailələrlə, eyni zamanda, aidiyyəti qurumlarla işləyirik. Hazırda dünyada 210 mindən çox şəxs bu kontekstdə qeydiyyata alınıb. Biz bilirik ki, miqyas daha böyükdür".

**İsmayıl**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 30-da Şuşada keçirilən Vaqif poeziya günləri çərçivəsində Heydər Əliyev Fondu tərəfindən təşkil edilən "Qarabağ Azərbaycan mədəniyyətinin incisidir" və "Yenidən doğma diyarda - Qarabağın sənət inciləri" sərgiləri ilə tanış olublar. Qeyd edək ki, Qarabağ Azərbaycan incəsənətinin və mədəniyyətinin mərkəzi kimi qədim tarixə sahibdir.

# Şuşa tarixi əzəmətinə qovuşur

## İlham Əliyevin səfəri onu göstərir ki, Azərbaycan dövləti Qarabağa öz mədəniyyəti ilə qayıdır

İşğal dövründə talan edilən muzeylərdə Azərbaycana məxsus qiymətli tarix və mədəniyyət nümunələri, dünyada məşhur Azərbaycan xalçaları və Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları, həmçinin digər dəyərli eksponatlar olub. Məhv edilən həmin xəzinələr təkcə Azərbaycanın yox, həm də bütün dünya mədəniyyətinin nümunələri idi. Sərgidə nümayiş olunan rəsm və heykəltəraşlıq nümunələri ziyarətçiləri sevincli və kədərli, real və fantastik, açıq və gizli, rəngarəng və monoxrom dünyaya səyahətə aparır. Burada nümayiş etdirilən əsərlərdə əsas ilham mənbəyi Qarabağdır. Azərbaycanın tarixi diyarı olan Qarabağ uzun illər ərzində özünəməxsus atmosferi ilə fərqli nəsillərdən və cərəyanlardan olan rəssamların və heykəltəraşların dünyagörüşünə böyük təsir edib. Sərgidə Qarabağın mənzərələri, ədibləri, xalçası, atı, muğamı, Vətən müharibəsində qələbə mövzularına geniş yer verilib.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən bərpa və təmir olunaraq yaradılan Şuşadakı Xalçaçılıq Qalereyasında təşkil edilmiş sərgi ilə tanış olublar. Məlumat üçün bildirək ki, Azərbaycan Milli Xalça Muzeyinin təqdim etdiyi sərgidə xovlu və xovsuz xalçalar, xalça məmulatları, milli tikmə və geyim dəstləri, bədii metal nümunələri nümayiş olunur. Sərgidə, həmçinin Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasına daxil olan xalça nümunələri də yer alıb. Qeyd edək ki, yenidən öz doğma diyarında sərgilənən bu eksponatların əksəriyyəti Birinci Qarabağ müharibəsi zamanı Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialından Bakıya gətirilib. Sərgidə əsrlər boyu çox yüksək dəyərləndirilən, xarici muzey və şəxsi kolleksiyaların nadir inciləri sırasına daxil olan Qarabağ xalçalarının müxtəlif bölgələrə aid nümunələrini görmək mümkündür. Sərgi qədim torpağın ruhunu, əsrlərlə burada yaşayıb-yaradan insanların həyat və məişətini, estetik zövqünü, sənətkarların bədii dünyagörüşünü duymağa, həmin tarixi dövrlərə səyahət etməyə imkan yaradır.



Şuşada "Yaddaş. Fotoqrafik tarix" sərgisi də təşkil edilib. Fotosərgi Azərbaycanın qədim tarixini, zəngin mədəniyyətini, gözəl təbiətini, ənənələrini təcəssüm etdirir. Ermənistan vaxtilə işğal altında saxladığı ərazilərdə mədəni irsimizə, tarixi-memarlıq nümunələrimizə qarşı vandalizm həyata keçirib, düşmən tərəfindən tarixi-mədəni obyektlər, dini ocaqlar məhv edilərək, bir sıra rayon və şəhərlər yerlə-yeksan olunub. Ziyarətçilərə, həmçinin işğaldan azad olunmuş rayon və şəhərlərdə ermənilərin törətdiyi vəhşiliklərə, dağıntılara dair fotolar da təqdim edilir. Sərgidə Vətən müharibəsi zamanı Ermənistan tərəfindən mülki əhaliyə qarşı törədilən cinayətləri əks etdirən fotolar da nümayiş olunur.

Məlumat üçün bildirək ki, avqustun 29-da Prezident İlham Əliyevə Şuşa şəhərinin baş planı təqdim olunub. Dövlət başçısına məlumat verilib ki, Şuşa şəhərinin baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Qeyd olunub ki, mədəniyyət paytaxtımızda həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulacaq və tezliklə keçmişdə olduğu kimi, Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək. Təqdim olunan baş planda Şuşanın orta, yüksək və qarışıq sıxlıqlı olan yaşayış binalarının inşa edilməsi, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binalar və abidələrin yerləri də öz əksini tapıb. Şəhərdə uzunluğu 36,2 kilometr olan mövcud yollarla yanaşı, həm də 17,6 kilometr yeni yolun inşası da nəzərdə tutulur. Həmçinin şəhərin baş planında ictimai dayanacaqların da yerləşmə yerləri müəyyən olunub. Bu dayanacaqlar elə qoyulacaq ki, şəhərin küçələrinə giriş-çıxışa maneə olmasın. Baş plan hazırlanarkən, şəhərin relyefinə uyğun olaraq yaşıllıqları və landşaftı qoruyub saxlamaq, onu inkişaf etdirmək məqsədilə yaşıl dəhlizlərin inşası da nəzərdə tutulur. Vurğulanıb ki, Şuşada ümumi sahəsi 46.765 min kvadratmetr olacaq yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq. Məhəllələr üzrə əhali sayı 2020 nəfər nəzərdə tutulur. Beləliklə, yaşayış massivində 25 binanın olacağı planlaşdırılır. Avqustun 29-da təməli qoyulan 1-ci məhəllədə 3, 4 və 5 mərtəbəli binalar da Şuşaya xas memarlıq üslubu ilə tikiləcək.

Ölkə rəhbəri "Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolu"nda son tamamlama işləri ilə də tanış olub. Prezidentə məlumat verilib ki, Zəfər yolunun tikintisi başa çatmaq üzrədir: "İki-üç hərəkət zolaqlı yolun uzunluğu 101 kilometrdir. Artıq yolun 92 kilometrlik hissəsinə asfalt-beton örtüyü salınıb. Digər hissələrdə isə işlər davam etdirilir. Yolda körpülər və yeraltı keçidlər inşa edilib".

Dövlət başçısı Şuşada "Qarabağ" otelinin, Azərbaycan şairi Molla Pənah Vaqifin büstünün, muzey-məqbərə kompleksinin, Bülbülün ev-muzeyinin, Üzeyir Hacıbəylinin heykəlinin açılışında da iştirak edib.

**Prezidentin Şuşaya səfəri və açılışlarla bağlı "Şərq"ə danışan millət vəkili Asim Mollazadə "Şərq"ə deyib ki, Qarabağda quruculuq və bərpa işləri hər zaman dövlət başçısının diqqətindədir.** Deputatın sözlərinə görə, ölkə rəhbəri şəxsən özü quruculuq prosesinin necə getdiyini izləyir və yoxlayır: "Qarabağla bağlı bütün planların həyata keçirilməsində Prezidentin xüsusi və mühüm rolu var. Bununla yanaşı, Böyük Qayıdış sadəcə infrastruktur, tikinti işləri yekunlaşmır. Bilirsiz ki, yeni hava limanları açılır, yollar çəkilir və s. Əlbəttə, bunların hamısı olduqca vacibdir. Amma Şuşaya səfər onu göstərir ki, Azərbaycan dövləti Qarabağa öz mədəniyyəti ilə qayıdır. Prezidentin budəfəki səfərində dahi musiqiçilərə, şairlərə, mədəniyyət nümayəndələrinə böyük diqqətin göstərilməsi göz önündə idi. Bunlar onu göstərir ki, mədəni paytaxtımız - Şuşa artıq fəaliyyətə başlayıb. Hazırda Şuşada poeziya günləri keçirilir. Yaxın günlərdə Şuşada bütün ölkə, region və dünya üçün böyük əhəmiyyət kəsb edən mədəni tədbirlər təşkil olunacaq. Belə tədbirlər ənənəvi hal alacaq. Prezidentin Şuşa səfəri əsnasında sadəcə binaların təməl daşı qoyulmur, eyni zamanda Azərbaycanın mədəniyyət paytaxtının - Şuşa adlı mədəni mərkəzin təməl daşı qoyulur".

**İsmayıl Qocayev**



Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması üçün bərpa-quruculuq işləri sürətlə davam etdirilir. Avqustun 29-da Şuşada "Otel və Konfrans Mərkəzi"nin təməli qoyulub.

# Şuşa inkişafın yeni mərhələsinə qədəm qoyur

## Bərpa və yenidənqurma mərhələsi yeni iqtisadi inkişaf dövrü ilə əvəzlənməkdədir

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təməlqoyma mərasimində iştirak ediblər. Məlumdur ki, qədim dövrdə Şuşa Böyük İpək Yolunun əsas qovşaqlarından biri idi. Avropa və Şərq şəhərləri ilə birbaşa ticarət əlaqəsi saxlayırdı. Bu şəhərlərdən davamlı gəlib-gedən tacirlərin gətirdikləri malları saxlamaq üçün karvansaraylar tikilirdi. Karvansaray konseptini əsas götürərək, Şuşa şəhərinin mərkəzində, Zəfər yolunun üzərində yerləşəcək 5 ulduzlu "Otel və Konfrans Mərkəzi" müasir və milli memarlıq üslublarının sintezi ilə dizayn edilib. Mərkəz 2,8 hektar ərazini əhatə edəcək. Memarlıq adət-ənənələrini özündə əks etdirən xarici görünüşündə ornamental kompozisiyalar və milli memarlıq elementləri tətbiq ediləcək. Həmçinin, fasadın üzlənməsində Şuşanın tarixi binalarının tikintisində işlənilən yerli daşdan istifadə olunacaq. Bundan əlavə, mərkəzin eyvanları, şimal və cənub fasadları ənənəvi memarlıq quruluşunda, Şuşanın tarixi binalarının - XIX əsrə aid Zöhrabbəyovun evi, Üzeyir Hacıbəyovun ev-muzeyinin tikintisində istifadə olunmuş taxta tərkibli materiallardan hazırlanıb. Beş mərtəbədən və 150 nömrədən ibarət "Otel və Konfrans Mərkəzi"ndə otaqlar, restoranlar, konfrans korpusları, daxili həyətlər olacaq.

**Millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramov "Şərq"ə bildirib ki, qürur mənbəyimiz Şuşa şəhəri uzun müddət Qarabağın əsas iqtisadi mərkəzlərindən hesab olunub.** Deputat bildirib ki, həm şəhər, həm də eyni adlı rayon sənaye, kənd təsərrüfatı və xüsusən emaledici sektorların inkişafı üzrə fərqlənib: "Ötən əsrin əvvəllərində Şuşada 1700-ə yaxın ticarət obyekti qeydə alınıb və bu da şəhərin hələ bir əsr öncə xüsusi iqtisadi potensiala malik olduğunu göstərir. 20.9 min hektar yararlı torpağı olan Şuşada kənd təsərrüfatında heyvandarlıq daha çox inkişaf edib. 1992-ci ildə Şuşa işğal olunmamışdan öncə şəhərdə şərq musiqi alətləri fabriki, istehsalat kombinatı, Bakı "Radioqurma" istehsalat birliyinin müəssisəsi, Qarabağ ipək kombinatının toxuculuq sexi və digər istehsal müəssisələri var idi. Şuşada eyni zamanda inşaat materialları istehsalı üzrə də müəssisələr fəaliyyət göstərirdi. Turizm Şuşanın iqtisadiyyatında xüsusi yer tuturdu. Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, Şəmilin bulağı, Cıdır düzü turizm baxımından xüsusi üstünlüyə malikdir. 1992-ci ilədək Turşsu istirahət və müalicə zonası fəaliyyət göstərirdi".

**Parlament üzvü qeyd edib ki, Şuşada istifadəyə verilən "Qarabağ" hoteli və təməli qoyulan "Otel və Konfrans Mərkəzi" Şuşa şəhərində daxili və gəlmə turizminin inkişafına xüsusi töhfə verəcək:** "Bu, eyni zamanda ondan xəbər verir ki, yaxın zamanlarda Şuşada daha çox yerli və beynəlxalq tədbirlərin təşkili mümkün olacaq ki, bu da strateji baxımdan şəhərin əhəmiyyətini daha da gücləndirəcək. Şuşa yeni mərhələyə qədəm qoyur. Bərpa və yenidənqurma mərhələsi yeni iqtisadi inkişaf dövrü ilə əvəzlənməkdədir".

**İsmayıl Qocayev**

# Paşinyan Türkiyəyə yaxınlaşmaq istəyir, amma...



Ermənistan Baş naziri Nikol Paşinyan Türkiyədən regional sülh kontekstində müsbət siqnallar aldığını və ölkəsinin Ankaraya adekvat cavab vermək niyyətində olduğunu bildirib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da öz növbəsində Ermənistanla münasibətlərin normallaşdırılması mövzusuna toxunaraq "bölgənin konstruktiv yanaşmaya ehtiyacı olduğunu" vurğulayıb.

## "Rusiya Paşinyanı devirməklə Ermənistanın Azərbaycan və Türkiyə ilə sülh müqaviləsi bağlamasının qarşısını almağa çalışır"

Türkiyə lideri bəyan edib ki, yaxın tarix düşmənçilik mənbəyi olmamalıdır. Davamlı sülh və bir yerdə yaşamaq üçün konstruktiv addımlar atılmalıdır: "Birtərəfli ittihamlar yerinə gələcəyə baxan, realist yanaşmalar üstünlük təşkil etməlidir. Bu istiqamətdə hərəkət etməyə hazır olduğunu bəyan edən Ermənistan hökuməti ilə münasibətlərimizi tədricən normallaşdırmaq üçün çalışa bilərik". Ərdoğan qeyd edib ki, hazırda sülhü və sabitliyi daimi etməli, iqtisadi inkişaf və regional əməkdaşlıq üçün şərait yaratmalıyıq: "Üçtərəfli bəyannamədə razılaşdırıldığı kimi bütün bölgəni birləşdirməklə Cənubi Qafqazı dəyişdirən yeni imkanlar formalaşacaq. Bu tarixi fürsətdən yaxşı istifadə etmək istəyən bütün tərəflərlə işləməyə hazırıq. 5 və ya 6 platforma tövsiyəmiz var. Bu platformaya Türkiyə, Azərbaycan, Rusiya, İran və Ermənistan daxildir. Hətta dedik ki, bura Gürcüstanı da daxil etməliyik. Platforma bu şəkildə qəbul olunsaydı, düşünürəm ki, bölgə daha rahat olardı. Çünki bölgədə dəmir yolu və avtomobil yollarının çəkilməsinə ehtiyac var. Belə bir addım atmaqla bölgədəki problemləri aradan qaldıracağıq. Bunları cənab Putinlə müzakirə edərkən razılaşdıq. Eyni şəkildə İlham Əliyevlə razılaşdıq. Bu arada İranda prezident dəyişikliyi oldu. Bu barədə İranın yeni prezidenti ilə də danışa bilərik". Xatırladaq ki, Ermənistan hökumətinin qarşıdakı 5 il üçün proqramında Türkiyə ilə münasibətlərin normallaşdırılması üçün səy göstərməyə hazır olduğuna dair bir bənd var.

**Cənubi Qafqaz Sülh və Münaqişə Mərkəzinin rəhbəri, politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə açıqlamasında bildirib ki, Ermənistan hökuməti Rusiyanın bütün təzyiqlərinə rəğmən, Ankara ilə münasibətləri normallaşdırmaq istiqamətində səy göstərir.** Ekspert vurğulayıb ki, Paşinyanın niyyətini anlayan Moskva buna mane olmaq üçün regionda gərginlik yaradacaq addımlar atır: "Rusiya Ermənistanı silahlandırmaqla bu ölkəni yenidən Azərbaycanla müharibəyə hazırlaşdırır. Məqsəd Paşinyanı təsir altında saxlamaq və Ermənistanda növbəti dəfə rusmeyilli qüvvələr hakimiyyətə gələcəyi təqdirdə Azərbaycanla savaşa təşviq etməkdir. Ötən həftə Rusiya Müdafiə Nazirliyinin beş yüksək rütbəli zabiti Ermənistanda ordu quruculuğu istiqamətində təlimatlar və proqram hazırlamaq üçün səfərdə olub. İndiki məqamda Kremlin öz istəklərinə nail olacağı mümkün görünmür. Çünki Paşinyan öz hakimiyyətini gücləndirmək istiqamətində ciddi addımlar atır. Rusiyanın təzyiqlərinə baxmayaraq, Türkiyə və Azərbaycanla əlaqələrin qurulmasında maraqlı tərəf kimi çıxış edir və açıqlamalar verir. Baş nazir yaxşı bilir ki, Rusiya Ermənistan ordusunu gücləndirərsə, ona qarşı növbəti dəfə hərbi çevriliş ola bilər. Nəticədə hakimiyyətdən devrilər. Rusiya Paşinyanı devirməklə Ermənistanın Azərbaycan və Türkiyə ilə sülh müqaviləsi bağlamasının qarşısını almağa çalışır. Azərbaycan və Türkiyə tandemi isə Rusiyanın bu siyasətinin qarşısını alır".

*Analitikin sözlərinə görə, Türkiyə və Ermənistan diplomatları Avropada bir araya gələrək sərhədlərin açılmasını müzakirə ediblər:* "Türkiyə-Ermənistan əlaqələrini bərpa edən Sürix protokolu da görüşlərdə müzakirə olunub. Azərbaycanın da bu görüşə razılıq verdiyi deyilir. Xatırladım ki, ötən ay bir neçə erməni diplomatı Ankaraya səfər edərək Türkiyə Xarici İşlər Nazirliyində müzakirələr aparıblar. Əgər Ermənistan-Türkiyə əlaqələri bərpa edilərsə və sərhədlər açılarsa, Rusiyanın bu ölkədə mövqeyi zəifləyəcək. Azərbaycan və Türkiyənin Ermənistanla yaxınlaşma cəhdlərindən ciddi narahat olan Moskva mövcud situasiyanı mürəkkəbləşdirməyə çalışır".

**İsmayıl Qocayev**

# Rusiya Qarabağdakı "sülhməramlıları"na mandat axtarışındadır

## "Kremldə yaxşı başa düşürlər ki, uzun müddət regionda qalmaq qeyri-mümkündür"



**"Azərbaycan tərəfi həm Ermənistana, həm də ona dəstək olan mərkəzlərə və dövlətlərə xəbərdarlıq edib". Bunu "Şərq"ə açıqlamasında "Atlas" Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov deyib. Analitik bildirib ki, qarşı tərəfin Azərbaycanın mesajını ciddi qəbul etmək niyyəti və istəyi yoxdur: "Ona görə də mütəmadi şəkildə regionda gərginliyin yaranmasına çalışırlar.**

Azərbaycan 10 noyabr 2020 və 11 yanvar 2021-ci ildə imzalanmış üçtərəfli bəyannamənin şərtlərinə əməl edilməsini tələb edir. Qarşı tərəf isə faktiki olaraq imzaladığı şərtləri icra etmək istəmir. Heç vasitəçi də şərtlərə əməl olunmasında maraqlı görünmür. Görünən odur ki, yenə də əvvəlki vəziyyətə qayıtmağa çalışırlar, amma bu dəfə başqa ampluada. Hər kəsin öz dərdi var. Rusiya Qarabağda özünün "sülhməramlıları" üçün mandat axtarışındadır. Kremldə yaxşı başa düşürlər ki, "mandat"sız uzun müddət regionda qalmaq qeyri-mümkündür. Ona görə də guya bitərəf mövqe tutmağa çalışır. Ermənistan isə hər zamankı kimidir. Yəni bu gün Rusiya ona dəstək verirsə, münasibətləri davam etdirəcək. Sabah Qərb yaxşıdırsa, onun ətəyini və ayaqlarını öpəcək. Onların nöqteyi-nəzərində dəyişən heç nə yoxdur".

**Ekspert bəyan edib ki, regionda dəyişən əsas məsələ Azərbaycanın üzərinə düşür:** "44 gündə 30 ilə yaxın Ermənistan tərəfindən işğal altında qalmış ərazilərini ordusunun gücü ilə azad etdi. Regionda güc balansını dəyişdi. Türkiyə vasitəsi ilə Rusiyanın dominantlığı azaldıldı. Ölkə həm hərbi, həm də siyasi baxımdan dünyada nüfuzunu daha da artırdı və s. Hər halda Ermənistanda davam edən daxili hökumət böhranı da onu göstərir ki, Azərbaycanın atdığı addımları regionun həm hazırkı vəziyyəti, həm də gələcəyi baxımından vacib əhəmiyyətə malikdir. İndi növbə Ermənistandadır. Ya imzalanmış 10 noyabr 2020 və 11 yanvar 2021-ci il üçtərəfli bəyannamənin şərtlərinə əməl edəcək, ya da tamamilə təcrid vəziyyətinə düşəcək. Hər vəziyyətdə itirən Azərbaycan deyil, Ermənistan və ona dəstək verən qüvvələr və dövlətlərdir. Azərbaycan anti-terror əməliyyatlarına başlasa, regionda ciddi qarşıdurma yarana bilər ki, bu da heç kim üçün fayda gətirməyəcək. Ona görə də Ermənistan şərtlərə əməl etməlidir".

**İsmayıl**

# Təxribatların çoxu "əsəb müharibələri"dir

## Əlisahib Hüseynov: "Azərbaycanın da səbr limiti bəlli bir nöqtəyə qədərdir"

"Ermənilərin son günlər Azərbaycana qarşı təxribatları daha da artıb. Onların bir əsgərimizi bıçaqla yaralaması, başqa bir əsgərimizi əsir götürməsi, Sədərək rayonu istiqamətində yanğınlar törətməyə cəhd etməsi məqsədyönlü şəkildə təşkil olunmuş təxribatlardır".

**Bu barədə "Şərq"ə Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib. Partiya rəhbəri bildirib ki, təxribatlar planlı şəkildə və bir mərkəzdən idarə olunur:** "Bu təxribatlar bir çox hallarda məhz Rusiya sülhməramlılarının məsuliyyət zonasında baş verir. Lakin sülhməramlılar bu təxribatların qarşısını almaq və hərbi birləşmələrin tərksilah edilməsi üçün demək olar ki, heç bir addım atmır, xüsusi səy göstərmir. Əksinə, Kreml sülhməramlıların nəzarətində olan ərazilərdə sözügedən erməni hərbçilərinin təşkilatlanmasında və silahlandırılmasında maraqlı kimi görünür. Bəli, Rusiya hazırda təkcə Ermənistan ordusunu deyil, Azərbaycan ərazilərindəki erməni hərbi birləşmələrini də silahlandırır. Proseslərin gedişatı onu göstərir ki, Rusiya bölgənin separatçı və terrorçu dəstələrdən təmizlənməsində, Qarabağda sabitliyin bərqərar olunmasında qətiyyən maraqlı deyil. Rusiya regionda vəziyyəti mümkün qədər destabilizə etməyə, Azərbaycan və Ermənistanın öz aralarında razılığa gəlməsinin qarşısını almağa çalışır. Son günlər təxribatların artması da ilk növbədə bundan irəli gəlir. Ən maraqlısı budur ki, iki ölkə arasında gərginlik gündən-günə artır və erməni təxribatları səngimək bilmir. Lakin Rusiya vasitəçi olduğunu və dərhal hərəkətə keçməli olduğunu qəsdən unudur".

**Siyasi şərhçinin fikrincə, Azərbaycan tərəfi özü hərəkətə keçmək, adekvat cavab tədbirləri görmək məcburiyyətində qalır:** "Hadisədən dərhal sonra Azərbaycan tərəfinin Gorus-Qafan yolunu bağlaması həmin tədbirlərdən biridir. Bu yolun bağlanması Ermənistana çox ciddi mesajdır. Təxribatlara son qoyulmayacağı təqdirdə, Azərbaycan hətta Laçın dəhlizini də bağlaya və antiterror əməliyyatı da keçirə bilər. Hazırda rəsmi Bakı bu variantları da nəzərdən keçirir. Çünki Ermənistanın revanşist cəhdlərinin gün-gündən intensivləşməsi, Rusiya sülhməramlılarının isə tam fəaliyyətsizliyi



Azərbaycan tərəfinə başqa bir yol buraxmır. Hər üç təxribatdan açıq-aşkar görsənir ki, Rusiya başda olmaqla, Minsk qrupunun həmsədri olan ölkələr Ermənistanı yenidən Azərbaycanla müharibəyə təhrik etmək istəyirlər. Bu təxribatlar Ermənistanın əli ilə Azərbaycana qarşı təşkil edilən "əsəb müharibələri"dir. Beynəlxalq hüququn qorunması üçün məsuliyyət daşıyan bu ölkələr Ermənistanın ardıcıl olaraq Azərbaycana qarşı həyata keçirdiyi təxribatlar nəticəsində beynəlxalq hüququn prinsip və normalarının, eləcə də 10 noyabr razılaşmasının şərtlərinin kobudcasına pozulmasına göz yumurlar.

Lakin Azərbaycanın da səbr limiti bəlli bir nöqtəyə qədərdir".

**Ə.Hüseynov vurğulayıb ki, Azərbaycan Ermənistan kimi satellit, oyuncaq ölkələrin təxribatlarına necə cavab verməyin yollarını yaxşı bilir:** "Ermənistanı təxribatlara təhrik edən havadarları təkcə Paşinyan iqtidarının yox, bütün Ermənistanın taleyi ilə oynayırlar. Əgər Paşinyan sonda İrəvanın mərkəzi meydanında erməni xalqı tərəfindən linç olunmaq istəmirsə, o hazırda Ermənistanın havadarları rolunda çıxış edən həmsədr ölkələrin təhriklərinə uymaq əvəzinə, üçtərəfli Bəyanatın bütün bəndlərinin qeyd-şərtsiz yerinə yetirilməsi üçün təcili hərəkətə keçməlidir. Paşinyanın başqa yolu yoxdur!".

**İsmayıl**



# "Yolun bağlanılması Kreml üçün gözlənilməz oldu"

## Elxan Şahinoğlu: “Gorus-Qafan yolunun nəzarətimizdə olması Ermənistan hakimiyyətinə və erməni cəmiyyətinə təzyiq etmək üçün güclü alətdir”

**Gorus-Qafan yolunun bağlanmasından sonra Rusiya Prezidenti Vladimir Putin Ermənistan Baş naziri Nikol Paşinyana zəng edib. Tərəflər mövcud gərginliyi, Qarabağı və sərhəddə baş verənləri müzakirə ediblər.**

Ekspertlərin fikrincə, Rusiya prezidentinin Gorus-Qafan yolunun bağlanmasından dərhal sonra gecəyarısı erməni baş nazirə zəng etməsi rusların vasitəçiliyi ilə iki gün davam edən danışıqlarda Bakının irəli sürdüyü tələblərin kifayət qədər mühüm olduğuna dəlalət edir. Danışıqların iki nəticəsinin olduğu haqda məlumatlar yayılır. Azərbaycan tərəfinin sözügedən yolda keçid məntəqəsi quracağı, Ermənistanın yolun 21 kilometrliyini, eləcə də Çayzəmi və Eyvazlı kəndlərini Azərbaycan ərazisi olaraq tanıdığı deyilir. Əlbəttə, Putinin adi keçid məntəqəsinə görə Paşinyana zəng etməsi inandırıcı deyil. Görünür, Bakı iki gün davam edən danışıqlarda ilkin nəticənin əldə edilməsi ilə yanaşı, digər tələblərlə bağlı da vədlər alıb. Güman edilir ki, bundan sonra sərhədlərin delimitasiyası və demarkasiyası prosesi və üçtərəfli razılaşmaların bütün bəndlərinin icrası sürətlənəcək. Çünki Moskva anlayır ki, Bakının istəkləri yönündə prosesi sürətləndirməsə, vəziyyət nəzarətdən çıxa bilər. Bu həm Rusiyanın vasitəçilik missiyasını riskə atır, həm də Azərbaycanı ondan uzaqlaşdırır.

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyib ki, Rusiya prezidenti sərhəddə baş verənlər barədə səhih məlumatlara malikdir. Analitikin fikrincə, buna rəğmən Paşinyana zəng etməklə yenə hamıya mesaj göndərib ki, Rusiya prosesə nəzarət edir:** ”Azərbaycan sərhədçiləri yolu kəsdikdə ermənilərin köməyinə yeni rusiyalı hərbçilər çatdılar. Danışıqlar məhz onlarla aparıldı və yol açıldı. Putinin Paşinyana zəngi göstərir ki, bu problem də Rusiyanın vasitəçiliyi ilə həll olundu. Buna baxmayaraq, Azərbaycan sərhədçilərinin yolu bağlaması Kreml üçün gözlənilməz idi. Əslində Gorus-Qafqan yolunun uzun müddət açıq qalması Kremlin Bakıdan xahişi idi. Ancaq ermənilər sərhədçimizi yaraladığına görə yol Bakıdan verilən qərarla qapadıldı. Yol açılsa da, Azərbaycan maraqlı tərəflərə - Ermənistana, Rusiyaya və həmin yoldan istifadə edən İrana müəyyən mesajlar yolladı - ”Yol Azərbaycanın nəzarətindədir və istənilən zaman yenə qapada bilərik”.



**E.Şahinoğluna görə, son olay göstərdi ki, Gorus-Qafan yolunun nəzarətimizdə olması Ermənistan hakimiyyətinə və erməni cəmiyyətinə təzyiq etmək üçün güclü alətdir:** ”Məhz bunun nəticəsində Paşinyan parlamentdə çıxışı zamanı Zəngəzurda yaranmış son durum haqqında danışarkən erməni toponomik adlarına deyil, Azərbaycan toponim adlarına istinad etdi. Azərbaycan tərəfinin Eyvazlı və Çayzəmi kəndlərində Qafan-Gorus yolunu bağladığını bildirib. Bu amil istədiyimiz müsbət nəticələri əldə etmək üçün qarşı tərəfə təzyiq siyasətinin vacibliyini göstərir”.

**İsmayıl Qocayev**

# Vur, komandir, vur

## Zakir Həsənov təxribatlara adekvat cavab verilməsini əmr edib

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində xidməti müşavirə keçirilib. Ermənistan-Azərbaycan dövlət sərhədində və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikasının ərazilərində vəziyyəti təhlil edən müdafiə naziri qarşı tərəfin təxribat fəaliyyətinə dərhal adekvat cavabın verilməsini, qoşunların döyüş qabiliyyətinin və şəxsi heyətin döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması məqsədilə bölmələrin və idarəetmə məntəqələrinin fəaliyyətinin praktiki məşq etdirilməsi, döyüş planlarının dəqiqləşdirilməsi, həmçinin maddi-texniki təminat məsələlərinə xüsusi diqqət yetirilməsi ilə bağlı tapşırıqlar verib.

Azərbaycan ordusunda planlaşdırılan tədbirlərə toxunan general-polkovnik Z.Həsənov azad edilmiş ərazilərdəki bölmələrdə qoşun xidmətinin təşkili, ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi, hərbi infrastrukturun yaradılması, dağ yollarının çəkilməsi və onların daim işlək vəziyyətdə saxlanılması, bölmələrin qışa hazırlığının təmin edilməsi ilə bağlı müvafiq göstərişlər verib. Nazir nizam-intizam və təhlükəsizlik, o cümlədən yanğın təhlükəsizliyi qaydalarına riayət olunması, eləcə də hərbi qulluqçuların tibbi təminatının daha da yaxşılaşdırılmasına xüsusi diqqət yetirilməsinin vacibliyini bildirib.

**Sosial Tədqiqatlar Mərkəzinin Daxili siyasətin təhlili departamentinin baş məsləhətçisi, politoloq İlyas Hüseynov ”Şərq”ə açıqlamasında bildirib ki, Ermənistan daim regionda gərginliyin artırılmasına çalışır.** Onun sözlərinə görə, bölgədə daim Rusiya sülhməramlı qüvvələrinin qanunsuz fəaliyyəti də açıq-aydın şəkildə özünü göstərir ki, bu da Azərbaycan tərəfinin müvafiq tədbirlər görməsini labüd edir: ”Azərbaycan Silahlı Qüvvələrinin təkmilləşdirilməsi, eləcə də işğaldan azad edilmiş ərazilərdə döyüş hazırlığının artırılması və onun daim yüksək vəziyyətdə saxlanılması dövlətimizin diqqət mərkəzindədir. Qeyd edim ki, bir müddət bundan öncə də bu tipli xidməti müşavirə keçirilib. Eyni zamanda, Müdafiə Nazirliyi tərəfindən Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiyanın sülhməramlı qüvvələrinin qanunsuz fəaliyyətinə dair də müvafiq açıqlama verilib. O da bildirilib ki, Şuşakənd və Muxtarkənd ərazilərində yeni mühəndis istehkam qurğuları formalaşdırılır, həmçinin Laçın və Kəlbəcər rayonlarının şərq istiqamətində Ermənistan tərəfi döyüş postları təsis edir. Təbii ki, bu, regionda gərginliyin artırılmasına xidmət edən addımlardır və bunu heç bir vəchlə Ermənistanın sülh razılaşmasına hazırlığı kimi dəyərləndirmək olmaz. Digər tərəfdən Ermənistanda yeni formalaşmış hökumətin Müdafiə naziri Arşak Karepatyan davamlı olaraq rusiyalı həmkarı ilə təmasdadır. O, Rusiyada keçirilən silah sərgilərində iştirak edir, Rusiyanın müasir texnologiyaları ilə maraqlanır və döyüş arsenalının artırılması istiqamətində müasir texnologiyaların əldə olunmasında xüsusi israr göstərir. Eyni zamanda, Ermənistan Müxalifət Partiyasının çıxışları yenidən onların revanşist ritorikaya, revanşist əhval-ruhiyyəyə sadiq olmalarını açıq-aydın göstərir. Buna görə də Azərbaycan Müdafiə Nazirliyi bu istiqamətdə müvafiq tədbirlər görür”.







**İlyas Hüseynov:** *“Ordumuzun döyüş hazırlığına gətirilməsi silahlı qüvvələrimizin mənəvi, psixoloji ruhuna müsbət təsir edən amillərdəndir”*

**Asif Nərimanlı:** *“İstisna deyil ki, Bakı və Ankara erməni terrorçulara qarşı atılacaq mümkün addımlara və hərbi planlara qərar verib”*

**İ.Hüseynov diqqətə çatdırıb ki, bu gün Azərbaycan ordusunda islahatlar gedir və bu islahatlar döyüş qabiliyyətinin artırılmasına dair bütün komponentləri özündə əxz edir:** ”Müdafiə Nazirliyi həm silahlı qüvvələrimizin, həm hərbi qulluqçularımızın, həm də mülki vətəndaşlarımızın sağlamlığını və təhlükəsizliyini qorumaq üçün daim müvafiq tədbirlər həyata keçirir. Xidməti müşavirə də bu təhlükəsizlik tədbirlərinin tərkib hissəsidir. Xüsusən, hərbi qulluqçularımız ərazilərimizin partlamamış sursatlarla dolu olmasını nəzərə alaraq həmin ərazilərdə xüsusi ehtiyatla davranmalıdır. Buna görə də daim təlimlərin keçirilməsi xüsusilə önəmlidir. Bundan başqa, Ermənistan tərəfi son dövrlər ərazilərin yandırılmasına təşəbbüslər göstərir. Təbii ki, bu cür təxribatların qarşısının vaxtında və operativ qaydada təmin olunması istiqamətində mühüm tədbirlər həyata keçirilməlidir. Digər önəmli xüsus da ondan ibarətdir ki, bu tipli tədbirlərin keçirilməsi, ordumuzun döyüş hazırlığına gətirilməsi silahlı qüvvələrimizin mənəvi, psixoloji ruhuna müsbət təsir edən amillərdəndir. Ona görə də davamlı olaraq təlim məşqlərin keçirilməsi mühüm aktuallıq kəsb edir. Həmçinin, Azərbaycan 21-ci əsrin çağdaş dövrün ordusu olduğu üçün ən müasir texnologiyaları tədqiq edir. Ona görə də bu cür təlimlərin keçirilməsi təqdirəlayiqdir”.

**Siyasi analitik Asif Nərimanlı ”Şərq”ə açıqlamasında bildirib ki, müdafiə naziri bundan öncə də eyni səpkili göstərişlər vermişdi. O qeyd edib ki, lakin bu dəfə diqqətçəkən iki məqam var:** ” Birincisi, Zakir Həsənov Türkiyədə Hulusi Akarla görüşdü və Qarabağdakı vəziyyəti də müzakirə etdi. İstisna deyil ki, Bakı və Ankara erməni terrorçulara qarşı atılacaq mümkün addımlara və hərbi planlara qərar verib. İkincisi, əmr sentyabrın 2-dən - erməni separatçı-terrorçuların qondarma ”müstəqillik günü” keçirəcəyi tarixdən öncə verildi. Bakı ordusunu mümkün siyasi və hərbi təxribatlara hazır vəziyyətə gətirir. Çünki sentyabrın ilk həftəsində erməni təxribatının genişlənəcəyi istisna deyil”.

**Aynurə Pənahqızı**




# Zəngəzur dəhlizi açılacaq

## Çünki bu məsələ təkcə Ermənistan Azərbaycan məsələsi deyil

Ermənistan Təhlükəsizlik Şurasının Baş katibi Armen Qriqoryan "Azadlıq" radiosunun Ermənistan xidmətinə müsahibə verib. Müsahibədə əsas mövzu Azərbaycanla danışıqlar və regional kommunikasiyaların açılması barədə olub. Armen Qriqoryan Azərbaycanla delimitasiya prosesinə hazırlıq görüldüyünü deyib. O bildirib ki, Ermənistan delimitasiya prosesinə hazırdır və Azərbaycandan müvafiq reaksiyanı gözləyir.

Onun sözlərinə görə, Rusiya sərhədçiləri Bakı ilə Yerevan arasında delimitasiya və demarkasiya prosesi bitdikdən sonra iki ölkənin sərhədinə yerləşdiriləcək. Qriqoryan Zəngəzur dəhlizi məsələsinə toxunub və ölkəsini Rusiya ilə birləşdirmək üçün Azərbaycandan dəhliz istədiklərini əlavə edib: ”Regiondakı bütün nəqliyyat kommunikasiyalarının açılması nəzərdə tutulur. Ermənistan da Rusiya ilə əlaqə üçün Azərbaycan ərazisindən istifadə edə biləcək. Əgər Azərbaycan Zəngəzur dəhlizinin olduğunu hesab edirsə, biz də Rusiyaya dəhliz əldə edəcəyik”. Bəs, bu dəhlizin Azərbaycan üçün hansı əhəmiyyəti var?

**Zəngəzur dəhlizinin açılmasının labüd olduğunu vurğulayan politoloq Natiq Miri ”Şərq”ə açıqlamasında vurğulayıb ki, bu dəhliz ilk növbədə bütün ölkələrin geosiyasi maraqlarına xidmət edir.** Politoloq diqqətə çatdırıb ki, Armen Qriqoryanın açıqlaması da Ermənistan hökumətinin indiyə qədər sabotaj etdiyi bütün arqumentlərdən tamamilə geri çəkildiyini göstərir: ”Xatırladım ki, Ermənistan hökumət başçısı Nikol Paşinyan bu prosesə üçüncü, dördüncü xarici qüvvələrin müdaxiləsini və beynəlxalq müşahidəçilərin sərhədlərin müəyyənləşməsi prosesində iştirakını təmin etmək istəyirdi. Həmçinin, birmənalı olaraq dəhliz məsələsinin 10 noyabr Bəyanatında olmadığını və bunun mümkün olmayacağını iddia edirdi. Ancaq Qriqoryanın indiki açıqlaması onu göstərir ki, bütün bu məsələlərin hamısından vaz keçilib. Dolayısıyla onun açıqlaması əslində Azərbaycanın istədikləridir. Sadəcə bu açıqlama elə bir təqdimatda verilib ki, sanki bu məsələlərdə Ermənistan da müəyyən mənada özünün geosiyasi maraqlarını təmin edir. Yəni söhbət əgər Zəngəzur dəhlizinin açılmasından gedirsə, burda Ermənistanın da Rusiya ilə əlaqə yarada biləcəyi və ya birləşəcəyi arqumenti ortaya qoyulur. Çox maraqlıdır ki, əgər ana Azərbaycan Naxçıvanla birləşirsə və bu kontekstdə Zəngəzur dəhlizi həm dəmir yolu xətti, həm də avtomobil yolu ilə açılacaq və o zaman avtomatik olaraq dəmir yolu xətti ilə Ermənistan Rusiyaya birləşdiriləcək. Azərbaycanın Naxçıvana açılacaq avtomobil yolundan Rusiya da, daha doğrusu, Ermənistan da istifadə edə biləcək. Həmçinin, gələcək perspektivdə Azərbaycan-Gürcüstan sərhədində Ermənistanın Gürcüstanla quru və digər əlaqələri də təmin oluna bilər”.

**Politoloq əlavə edib ki, ermənilərin işğalı altında olan Qazaxın 7 kəndinin də qaytarılması məsələsi labüddür:** ”Bu kəndlər qaytarıldığı təqdirdə Ermənistanın Gürcüstanla əlaqəsi Azərbaycanın kəndlərindən keçəcək ki, bu da Azərbaycanı Ermənistana növbəti təzyiq imkanlarını özündə saxlayır. Bu xüsusda düşünürəm ki, Ermənistan həm də bütün bu məsələləri nəzərə alaraq bu yöndə müsbət açıqlamalar verir. Düşünürəm ki, bu məsələdə təbii ki, son Gorus-Qafan yolunun Azərbaycan tərəfindən birtərəfli qaydada bağlanması, xüsusilə də İranla Ermənistan arasında mövcud olan yeganə ticarət yolunun bağlanması hadisəsi bu açıqlamalarda gedilən güzəştlərdə xüsusi rol oynadı. Çünki Azərbaycan ortaya konkret bir siyasi iradə qoydu, yolları bağladı. İranın verdiyi bəyanata rəğmən Azərbaycan öz şərtlərinin qəbul olunmadığı təqdirdə yolun açılmayacağı iradəsini ortaya qoydu. Düşünürəm ki, Azərbaycanın şərtləri müəyyən mənada qəbul olunub. Çünki Ermənistanın hökumət başçısı Nikol Paşinyanın parlamentdə bu hadisədən sonra açıqlamalar, Türkiyə ilə yeni münasibətlər sistemindən danışması da göstərdi ki, üfüqdə artıq müəyyən güzəşt fikirləri özünü göstərməkdədir. Ən nəhayət, Armen Qriqoryanın da açıqlaması göstərir ki, Ermənistanda artıq regional əməkdaşlıq platformasından istifadə etmək istəyənlərin sayı getdikcə çoxalır. Əslində Nikol Paşinyanın rəhbərlik etdiyi siyasi güc mərkəzinə xalq tərəfindən verilən siyasi mandatın mahiyyəti də bundadır. Xalq sülh və təhlükəsizlik üçün Nikol Paşinyanın rəhbərlik etdiyi siyasi komandaya səs verdi, yəni bu səs müharibəni davam etdirmək üçün verilmədi. Ona görə də mütləq mənada iqtisadi-ticari əməkdaşlığı gücləndirmək, bu platformanı inkişaf elətdirmək, regional əməkdaşlığı gücləndirmək lazımdır. Diplomatik danışıqların bərpası və yeni siyasi münasibətlər sisteminin qurulması əslində regionun sülh və təhlükəsizliyinin yeganə təminatıdır və bu çox vacib məsələdir. Çünki bu məsələ təkcə Ermənistan Azərbaycan məsələsi deyil, bu məsələ Rusiya, İran, Türkiyənin də daxil olduğu regionda ciddi sülh və təhlükəsizlik qarantı olan bir platformadır. Bu platformanın inkişafı isə bütün ölkələri həm iqtisadi cəhətdən, həm də ticarət cəhətdən qazandıracaq. Eyni zamanda Ermənistana yeni maliyyə bazarlarına çıxış imkanı tanıyacaq ki, bu da Ermənistana müəyyən mənada investorlar cəlb edəcək. Təbii ki, bu da xüsusi məqamdır. Ayrıca, Avropa Birliyinin Ermənistana ayırdığı 2,5 milyard avro dəyərində bir qrant layihəsi var. Bu proqramda isə konkret 5 prioritet nəzərdə tutulur. Bu proqramın əsas cəhətlərindən biri də bütün kommunikasiyaların açılması və Ermənistanın bloklanmış bir ölkədən tranzit ölkəsinə çevrilməsidir. Təbii ki, tranzit ölkəyə çevrilmək Ermənistana yeni pullar qazandıracaq. Eyni zamanda bütün qlobal layihələrdə iştirak imkanı əldə edəcək və maliyyə bazarlarına çıxış imkanını təmin edəcək. Habelə, özünü kənd təsərrüfatı məhsullarını və digər ixrac edə biləcək məhsullar üçün yeni bazarlar qazanacaq. Təkcə Rusiya və MDB deyil, Naxçıvandan İrana açılan dəmir yolu xətti ilə Hindistana, Mərkəzi, Cənub-Şərqi Asiyaya qədər bu prosesi götürə biləcək. Ona görə də əlbəttə ki, Zəngəzur dəhlizinin açılması labüddür, realdır. Bu, bütün ölkələrin geosiyasi maraqlarına xidmət edir”.

> **“Bu məsələ həm də Rusiya, İran, Türkiyənin də daxil olduğu regionda ciddi sülh və təhlükəsizlik qarantı olan bir platformadır”**

**Politoloq diqqətə çatdırıb ki, Azərbaycan və Türkiyə üçün bu əslində geostrateji bir layihədir:** ”Birincisi, Azərbaycanla qardaş Türkiyəni, yəni iki Türk Cümhuriyyətini birləşdirəcək. İkincisi isə Azərbaycan bir növ türk dünyasına açılışda körpü rolunu oynayacaq. Bunlar çox əhəmiyyətli məqamdır. Düşünürəm ki, həm qardaş Türkiyənin, həm də Azərbaycanın Mərkəzi Asiya ölkələrində, qardaş Türk Cümhuriyyətlərində mövqelərini gücləndirəcək. Həmçinin, iqtisadi və digər yöndə əlaqələri gücləndirəcək ki, bu da gələcəkdə ortaq təsəvvürlərin inkişafına rəvac verəcək. Düşünürəm ki, Zəngəzur dəhlizinin açılmasının alternativi yoxdu və bunu da Ermənistan çox yaxşı anlayır. Bunun alternativinin yalnız müharibə olacağını Nikol Paşinyan da dərk edir və bunu dəfələrlə dilə gətirib. O hətta bunun Ermənistan üçün arzuolunmaz olduğunu dəfələrlə bəyan edib. Bu çox xüsusi məqamdır və düşünürəm ki, diqqətəlayiqdir. Armen Qriqoryanın da dedikləri təxminən bu xüsusdadır. Dolayısıyla Zəngəzur dəhlizinin açılacağına şərait yaradan bir açıqlamadır və erməni ictimai rəyini bu dəhlizinin açılmasına hazırlayır”.

**Aynurə Pənahqızı**



## Ərdoğan: "Düşmənə qorxu, dosta güvən verən bir struktur quracağıq"

**”Düşmənə qorxu, dosta güvən verən bir struktur quracağıq”.**

”Report” xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə Milli Müdafiə Nazirliyinin ”Ay Yıldız” layihəsinin təməlqoyma mərasimində çıxışı zamanı deyib.

”Bu layihə ilə Milli Müdafiə Nazirliyini, Silahlı Qüvvələrin Baş Qərargahını, bütün komandanlıqları bir yerə toplamış olacağıq. Hər şeyi ilə düşmənə qorxu, dosta güvən verən bir strukturu burada qurmuş olacağıq. Mərkəzi müdafiə sistemini, müştərək müdafiə sistemini qurmuş olacağıq”, - o qeyd edib.

## Çinli mütəxəssislər iddia edir

### Koronavirus Uhana dondurulmuş ərzaq paketlərlə gətirilib



**”Koronavirus infeksiyasının xaricdən Uhana dondurulmuş yemək paketləri ilə gətirilməsi mümkündür”.**

APA RİA Novosti-yə istinadən xəbər verir ki, Çinin Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzinin mütəxəssisləri bu qənaətə gəliblər.

Mərkəzin sözçüsü Ma Huilainin sözlərinə görə, epidemioloji araşdırmalar zamanı məlum olub ki, virus Çinə digər ölkələrdən və ya bölgələrdən buzlaşdırılmış şəkildə nəql olunub.

## "Səhvimi düzəldəcəm"

### Şoyqu Ukrayna məhkəməsinə getməmə səbəbini açıqladı



**Rusiyanın Müdafiə naziri Sergey Şoyqu ”Rosiya-1” telekanalına müsahibə verib.**

”Şərq” ”RİA Novosti”yə istinadən bildirir ki, nazir aparıcının ”Niyə Ukrayna məhkəməsinə çağırılmamısınız” sualını zarafatla cavablayıb. O deyib: ”Üzr istəyirəm, səhvimi düzəldəcəm”.

Rəsmi Kiyev Rusiyanı Ukraynanın daxili işlərinə qarışmasına, həmçinin qanunda nəzərdə tutulmayan hərbiləşdirilmiş silahlı birləşmələr yaratdığına görə dəfələrlə ittiham edib.

**Kənan**

## Kabul atəşə tutulub

### 5 raketdən biri hava limanına düşüb

**Kabula beş raket atılıb. ”Şərq” ”RİA Novosti”yə istinadən bildirir ki, onlardan biri hava limanına düşüb.**

Hücum şəhərin şimal hissəsində keçirilib, itkilər və dağıntılar barədə hələlik məlumat yoxdur. Hücumun arxasında kimin dayandığı məlum deyil.

**Kənan**

# Artıq heç nə əvvəlki kimi olmayacaq

## “Akınçı” həm də Azərbaycanın gücüdür




**Yücel Karauz: “Dostlar sevinməli, düşmənlər düşünməlidirlər”**

**“Bayraqdar” texnologiya şirkəti tərəfindən istehsal olunan (Akıncı Taarruzi İnsansız Hava Aracı -TİHA) pilotsuz zərbə aparatlarının Türkiyə Silahlı Qüvvələrinin arsenalına daxil edilməsi münasibətilə Təkirdağda keçirilən tədbirdə Azərbaycan da təmsil olunub.**

Azərbaycanın Ankaradakı səfirliyindən verilən məlumata görə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirak və çıxış etdiyi tədbirdə Azərbaycanın Türkiyədəki hərbi attaşesi polkovnik Müşfiq Məmmədov da iştirak edib.

”Akıncı” TİHA inkişaf etdirilmiş texniki imkanlar sayəsində döyüş təyyarələrinə məxsus bəzi funksiyaları həyata keçirmək qabiliyyətinə malikdir. Azərbaycan Ordusunun gələcəkdə ”Akıncı” TİHA-nın sifarişçilərindən olacağı ehtimal edilir.

**Türkiyəli ehtiyatda olan general Yücel Karauz sözügedən silahın əhəmiyyəti barədə ”Şərq”ə danışıb:**

”Belə demək mümkünsə, yeni növ PUA ”hərbi xidmətə başladı”. Bu ad Osmanlı tarixindən gəlir. ”Akıncı”nın istehsalında müasir texnologiyadan, 100-ə yaxın internet sistemindən istifadə olunub. Ağırlığı altı tondur, 1.5 ton yük daşıya bilir. 11 min metr yüksəkliyə qalxa bilən bu təyyarə havada 25 saatdan çox qalır. Beləliklə, Türkiyə özünün PUA istehsalı istiqamətində yeni mərhələyə qədəm qoydu. İndiyədək müharibələrdə, o cümlədən Qarabağdakı hərbi əməliyyatlarda ”Bayraktar”lar nə edirdisə, bundan sonra da ”Akınçı” onu edəcək. Sözügedən silahın əvvəlkilərdən fərqi təkcə quru müharibələri üçün yox, həm də hava mübarizələrindən ötrü nəzərdə tutulmasıdır. Artıq heç nə əvvəlki kimi olmayacaq. ”Akınçı” həm də Azərbaycanın gücüdür. Deməli, dostlar sevinməli, düşmənlər düşünməlidirlər”.

**Kənan**



## 39 nəfər vəfat edib

### Azərbaycanda daha 3 107 nəfər koronavirusa yoluxub

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 3 107 yeni yoluxma faktı qeydə alınıb, 1 770 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 39 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 421 103 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 362 898 nəfər müalicə olunaraq sağalıb, 5 592 nəfər vəfat edib, aktiv xəstə sayı 52 613 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 11 191, ötən müddət ərzində isə ümumilikdə 4 442 244.test aparılıb.*

## Ermənistana nə vaxt sanksiya tətbiq ediləcək?

### “Müharibə itkinlərindən 30 ilə yaxındır xəbər yoxdur”

**Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsinin rəisi Leyla Abdullayeva 30 avqust - Beynəlxalq İtkin Düşmüşlər Günü ilə bağlı ”Tvitter” səhifəsində çıxış edib. O bildirib ki, ədalətin bərpa edilməsini gözləyirik.**



”Ermənistanın təcavüzü nəticəsində itkin düşmüş azərbaycanlılara həsr olunmuş belə bir əlamətdar tədbirin moderasiyasını həyata keçirməkdən qürur duydum. Biz itkin düşmüş azərbaycanlıların yaxınlarının səsini dünyaya çatdırırıq və ədalətin bərpa edilməsini tələb edirik”.

**Millət vəkili Elman Məmmədov bu barədə ”Şərq”ə münasibət bildirib:** ”Təəssüf ki, müharibə itkinlərindən 30 ilə yaxındır xəbər yoxdur. Azərbaycan dövləti uzun illər ən yüksək səviyyədə bu məsələni qaldırdı və yenə də işlər davam edir. Bu, Ermənistanın növbəti terror aktı, hərbi cinayəti kimi qiymətləndirilməlidir. BMT başda olmaqla heç bir beynəlxalq qurum İrəvana sanksiya tətbiq etmədi, onu cəzalandırmadı. Halbuki İkinci Qarabağ savaşından sonra 4-5 erməni terrorçuya görə həmin beynəlxalq təşkilatlar rəsmi Bakının üstünə düşdülər. Və gəlib gördülər ki, erməni terrorçular normal şəraitdə saxlanılırlar”.

**Kənan**

# Şuşada həyat qaynayır

## “Bir ay sonra gəlsək, yenə yeniliklər görəcəyik”

### Mədəniyyətimizin paytaxtında bayram ab-havası hökm sürür

**İşğaldan azad edildiyi gündən Şuşanın dirçəldilməsi, əvvəlki xoşbəxt vaxtlarının geri qayıtması üçün işlər görülür. Elə bu günlərdə də mədəniyyətimizin paytaxtında bayram ab-havası hökm sürür.**

Avqustun 29-da görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin büstünün və Xalq artisti Bülbülün ev muzeyinin bərpa işlərindən sonra açılışı olub. Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva hər iki mərasimdə iştirak ediblər.

Bütün bunlarla yanaşı 39 il sonra doğma Şuşada Vaqif poeziya günləri təşkil olunub. Açılış mərasimində ölkə başçısı və birinci vitse-prezident də iştirak edib. Həmçinin tanınmış şairlər, yazıçılar da orada öz yerlərini alıblar.

**Xalq şairi Nəriman Həsənzadə də bu əlamətdar günlərdə iştirak etmək üçün Şuşaya yollanıb. Nəriman müəllim doğma diyardan ”Şərq”ə danışıb və təəssüratlarını bölüşüb:** ”Cənab prezident çox gözəl çıxış etdi. O günləri ümummilli lider Heydər Əliyevin 1982-ci il yanvar ayının 14-dəki görüşünü xatırlatdı. Prezidentimiz Şuşanın azad olunmasından bəhs etdi. İlham Əliyev bizim böyük, qalib qəhrəmanımızdır. Özü də qeyd etdi ki, Şuşaya yeni bərpa olunan ”Zəfər yolu”ndan gəldik. Hamının ürəyində bir oyanış, qürur var. Bu, Azərbaycan tarixində böyük bir mərhələdir. Ölkə başçısı dedi ki, Vaqif poeziya günlərini keçirəndə atasının da 59 yaşı olub, indi özünün də 59 yaşı var. Böyük sevincimizə səbəb oldu, hamımız ayaqüstə alqışladıq. Bizim milli bayramımızdır”.








**Xalq şairi Şair Baba Vəziroğlu da Vaqif poeziya günlərində iştirak edib. O, 39 ildən sonra yenidən Vaqif məqbərəsinin qarşısında dayandığını söyləyib:** ”1982-ci il yanvarın 14-də Ulu Öndərin rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində gənc yazar kimi mən də var idim. O görüş əbədi olaraq ömürlüyümə yazıldı. Təəssüf ki, otuz il bu torpaqlara həsrət qaldıq. Lakin inamımızı itirmədik, yenidən qayıdacağımıza əmin idik və qayıtdıq. Öz evimizə gəldik, şairimizin məqbərəsinin önündə dayanıb, ruhuna rəhmət oxuduq.

Bu tədbir qalib Azərbaycanın, onun lideri Cənab Ali Baş Komandanın rəhbərliyi ilə keçirildi. İlham Əliyev bizə reallığa çevrilən möcüzəni bəxş etdi. Onunla bir yerdə, bir sırada olmaqdan qürur duyuruq. Hür məmləkətin özgür yazarları kimi Şuşa torpağına qədəm qoyduq.

Cənab prezident də dedi ki, Vaqif poeziya günlərini beynəlxalq tədbirə çevirmək lazımdır. Dünyadan qonaqlar dəvət etməliyik ki, Şuşanı görsünlər, bu torpağın qüdrətinin, necə istedadlar yetişdirdiyinin şahidi olsunlar.

Ali Baş Komandan biz qələm adamlarına Azərbaycan mədəniyyətinin baş tacı Şuşada yığılmaq, tarixi günlər yaşamaq şansını verdi. Bir daha cənab prezidentə, birinci xanım Mehriban Əliyevaya təşəkkür edirəm. Prezidentimiz bu günə qədər nə deyibsə, hamısı reallaşıb.

Şuşa azad olunan gün dedi ki, biz səni dirçəldəcəyik. Onun üzərindən bir il keçməyib. Şuşada neçə-neçə yeni məkanın açılışı oldu. Məsələn, Vaqif məqbərəsinin, Üzeyir bəyin büstünün, ”Qarabağ” otelinin və sair.

Şuşada həyat qaynayır. Böyük marketlər fəaliyyət göstərir, inzibati orqanlar çalışır. Bir ay sonra gəlsək, yenə yeniliklər görəcəyik.

Şuşa ən gözəl yaşayış məskənlərindən birinə çevriləcək. Prezident yeni yaşayış məhəlləsinin özülünü qoydu, orada binalar inşa ediləcək. İnsanlarımız o evlərdə xoşbəxt yaşayacaqlar, burada iş problemi olmayacaq.

Bəlkə də qonşu rayonlardan bura işçi dəvət olunacaq. Ziyarət yerlərimiz çoxdur deyə hər yerə gedə bilmədik, yorulduq. Şuşa zatən hər mənada ucadadır. Biz onun daha da yüksəlişini görəcəyik”.

**Samirə Ərəblinski**

# “Hansısa bir virus genişlənirsə, digəri “yatır"



## Vaqif Qarayev: “Valideynlər uşaqların qidalanmasına diqqət etsinlər”



Uşaqlar arasında mədə-bağırsaq pozğunluğu, hərarət, qusma, ishal halları artıb. Xüsusən də yay istirahətini valideynləriylə birlikdə ölkənin müxtəlif bölgələrində keçirmiş uşaqlar daha çox xəstələnir.

Hətta 3-4 günlük gəzintiyə çıxanlar da, uşaqların xəstələnməsindən şikayətlənir, yaranan narahatlıq səbəbindən normal istirahət edə bilmədiklərini, bəziləri istirahəti yarımçıq kəsib paytaxta döndüklərini deyirlər. Uşaqlarda baş verən narahatlığın səbəbi COVİD-dirmi, ”Delta” ştammıdırmı, yoxsa bu, bildiyimiz mövsümi xəstəliklərdir?

**Pediatr Vaqif Qarayev ”Şərq”ə açıqlamasında uşaqlar arasında mədə-bağırsaq pozğunluğunun son 2 həftədə artdığını bildirdi:**

- Bu yay uşaqlar arasında xəstəlik halları həqiqətən çox artıb. Ötən il belə deyildi. Mən bunu ötənilki qapanmalarla əlaqələndirirəm. Sərt karantin müddəti oldu, bölgələrə səfərlər də azaldı. İnsanlar bir-birindən təcrid olmuşdu və yoluxma da az idi. Digər tərəfdən, bu da məlumdur ki, bir virus yayılırsa, digər virusu sıradan çıxarır. Hansısa bir virus genişlənirsə, digəri ”yatır”. Bu baxımdan ötən il uşaqlar arasında xəstələnmə halları az idi. Bu il isə çoxalıb. Təsəvvür edin ki, həftə sonları telefonum susmayıb. Valideynlər zəng edib, uşaqda narahatlıq olduğunu deyiblər, məsləhət istəyiblər. Əksəriyyəti də ishal, qusma, hərarət, boğaz ağrısı İlk növbədə hər kəsə tövsiyəm, məsləhətim budur ki, belə hallar yaşanırsa, həkimə, yerli poliklinikalara müraciət etsinlər və uşaqlardan mütləq ”COVİD-19” analizi götürülsün. ”Delta” koronavirusun bir variantıdır və ilk növbədə mədə-bağırsağı zədələyir, ishal, qusma, hərarət, öskürək, iştahsızlıq hamısı qarışır bir-birinə. Mütləq analiz alınsın və bilinsin ki, uşaqda koronavirusdu, ya yox. Bundan sonra müvafiq müalicəyə başlansın. Hazırda Gürcüstanda koronavirus xəstəsi olan təxminən 400-yə yaxın azyaşlı var, müalicə altındadırlar. Demək istəyirəm ki, ”uşaqdı, nə koronavirus? Uşaqlar yoluxmur” kimi diletant ”çağırışlara” inanmaq çox pis nəticələr verəcək. Əgər ailədə, böyüklər arasında kimsə koronavirusa yoluxubsa, deməli, o ailədəki uşaqlarda yoluxma var. Bununla zarafat olmaz!

**V.Qarayev qeyd etdi ki, valideynlər uşaqlara münasibətdə diqqətli olmalıdır:**

- İstirahət etmək lazımdır. Uşaqlar üçün də vacibdir. Amma hər bir valideyn uşağın öyrəşdiyi bir mühitdən başqa mühitə gedirsə, bilməlidir ki, bu, uşaqda problem yarada bilər. Adi iqlim dəyişikliyi hamıda - uşaqların da, böyüklərin də orqanizmində dəyişikliyə səbəb olur. Hər yerdə sanitar-gigiyena qaydalarına əməl edilmir. Uşaq əlini hara gəldi sürtə bilər, müxtəlif əşyalara toxuna bilər, sonra da əlini ağzına aparar, beləliklə bağırsaq infeksiyası orqanizmə düşər. İshal - diareya- bağırsağın ən çox yayılmış problemlərindən biridir. 1 yaşdan böyük uşaqlarda və böyüklərdə gün ərzində 3 dəfədən çox sulu və tezləşmiş nəcis ifrazı varsa, bu artıq ishal hesab edilir. İshala qida zəhərlənməsi də səbəb ola bilər, virus və bakterial infeksiyalar - rotavirus, adenovirus, stafilokokk, salmonella, bağırsaq çöpü və s. həzm sistemi orqanlarının xəstəlikləri - qastrit, pankreatit, kolit, enterit və s. hormonal pozulmalar, bəzi dərman preparatlarının qəbulu, hətta stres və qorxu, həyəcan da. Səyahət özü böyük bir səbəbdir. Səyahət zamanı mədə-bağırsaq sistemi onun üçün qeyri-adi olan qidalara ishal ilə cavab verə bilir. Nə üçün deyirik ki, valideynlər uşaqların qidalanmasına diqqət etsinlər. Normadan artıq meyvə-tərəvəz qəbul etmək, bilinməyən su mənbələrindən istifadə ishala səbəb olur. Meyvə-tərəvəz bakteriyalarla çirklənibsə, əlbəttə ishal yaradacaq, mədə pozuntusu əmələ gələcək. Bu da ürəkbulanma verir, iştahsızlıq, halsızlıq yaranır, hərarət yüksəlir, bədən susuzlaşır. Ev şəraitində ilkin müalicə aparmaq mümkündür. Yağlı qidalardan imtina, qazlı, kimyəvi qatqılı sular olmaz. Düyü həlimi uşaqlara yaxşı kömək edir. Amma ishal 2-3 gün davam edirsə, artıq həkimə müraciət edilməlidir. Və mütləq koronavirus testi verilməlidir.

**Məlahət Rzayeva**



## “Füzuli aeroportu beynəlxalq status daşıyır"

### Ekspert: “Xarici ölkələrə birbaşa reyslər olacaq”

**Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərə növbəti səfər zamanı Füzuli Beynəlxalq Hava Limanı barədə danışıb.**

O, bildirib ki, Füzuli aeroportu Qarabağın hava qapısıdır. Birinci vitse-prezident Mehriban Əliyevanın Füzuli Beynəlxalq Hava Limanına gedərkən çəkdiyi videogörüntüdə dövlətimizin başçısı deyir: ”Füzuli Beynəlxalq Hava Limanına yaxınlaşırıq.

Sol tərəfdə aerovağzal kompleksidir, qarşıda uçuş-enmə zolağı. Cəmi bir neçə ay ərzində hava limanı, demək olar ki, artıq açılışa hazırlaşır. Hava limanının inşası bu il başlayıb. Mən demişdim ki, bu il Füzuli Beynəlxalq Hava Limanı istifadəyə veriləcək. Bəlkə də dünyada bu sürətli templərlə heç bir hava limanı tikilməyib. Artıq uçuş-enmə zolağı da hazırdır. Burada son tamamlama işləri aparılır. Bir daha qeyd etmək istəyirəm, bu il mən hava limanının təməlini qoydum. İndi isə gəlirik inşaat işləri ilə tanış olmağa. Bu aeroport Qarabağın hava qapısıdır”.

**İqisadçı-ekspert Ruslan Atakişiyev Füzuli beynəlxalq hava limanının iqtisadi dividendləri barədə “Şərq”ə danışıb:** ”Qarabağda gələcəkdə turizm obyektlərinin açılacağını nəzərə alsaq, belə bir təşəbbüs çox vacibdir. İkinci bir tərəfdən, məhsul istehsalı həyata keçirilsə, onlar xarici və ölkə bazarına daha sürətli çatdırıla bilər. Füzuli aeroportu beynəlxalq status daşıyır. Deməli, xarici ölkələrə birbaşa reyslər də açılması mümkündür”.

**Kənan**

# “Ordumuz istənilən senariyə hazırdır"



## Şair Ramaldanov: “Dəmir yumruq” hələ də havadadır və düşməni əzməyə hazırdır”

**Bu gün Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində xidməti müşavirə keçirilib.**

Müşavirəyə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, eləcə də videobağlantı vasitəsilə azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik və birləşmələrin komandirləri, o cümlədən digər məsul zabitlər də cəlb olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarına çatdıran müdafiə naziri bildirib ki, Azərbaycan ordusunda aparılan islahatlar bundan sonra da davam etdiriləcək.

Zakir Həsənov Türkiyənin milli müdafiə naziri və baş qərargah rəisini, o cümlədən qəhrəman türk əsgərini 30 avqust - Türkiyənin Zəfər Bayramı və Silahlı Qüvvələr Günü münasibəti ilə təbrik edib.

Ermənistan-Azərbaycan dövlət sərhədində və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikasının ərazilərində vəziyyəti təhlil edən müdafiə naziri qarşı tərəfin təxribat fəaliyyətinə dərhal adekvat cavabın verilməsi, qoşunların döyüş qabiliyyətinin və şəxsi heyətin döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması məqsədilə bölmələrin və idarəetmə məntəqələrinin fəaliyyətinin praktiki məşq etdirilməsi,



döyüş planlarının dəqiqləşdirilməsi, həmçinin maddi-texniki təminat məsələlərinə xüsusi diqqət yetirilməsi ilə bağlı tapşırıqlar verib.

Azərbaycan ordusunda planlaşdırılan tədbirlərə toxunan general-polkovnik Z.Həsənov azad edilmiş ərazilərdəki bölmələrdə qoşun xidmətinin təşkili, ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi, hərbi infrastrukturun yaradılması, dağ yolların çəkilməsi və onların daim işlək vəziyyətdə saxlanılması, bölmələrin qışa hazırlığının təmin edilməsi ilə bağlı müvafiq göstərişlər verib. Nazir nizam-intizam və təhlükəsizlik, o cümlədən yanğın təhlükəsizliyi qaydalarına riayət olunması, eləcə də hərbi qulluqçuların tibbi təminatının daha da yaxşılaşdırılmasına xüsusi diqqət yetirilməsinin vacibliyini bildirib.

**Ehtiyatda olan polkovnik Şair Ramaldanov nazirin açıqlamaları barədə ”Şərq”ə danışıb:** ”Zakir Həsənov mütəmadi olaraq xidməti müşavirələr keçirir və ordunun döyüş qabiliyyətinin artırılması, yerlərdəki vəziyyətin təhlili ilə bağlı tapşırıqlar verir. Yəni fövqəladə bir şey yoxdur. Bütün fəaliyyət döyüş proqramına uyğun tənzimlənir”.

**Ş.Ramaldanovun fikrincə, silahlı qüvvələrimiz istənilən senariyə hazırdır:** ”Son zamanlar yaranan gərginlik Ermənistandakı revanşist qüvvələrin işidir. Belə ki, Baş nazir Nikol Paşinyan faktiki olaraq ölkədə söz sahibi deyil. Və etirazçılar bundan istifadə edirlər. Amma təxribatların qarşısı alınır. Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır. Ordumuzun bütün bölmələrinin təchizatı yüksək səviyyədədir. Müharibənin başlanacağına inanmıram. Çünki Ermənistan silahlı qüvvələrinin hansısa hərbi əməliyyatlara girmək imkanı yoxdur. Prezident İlham Əliyev regionda sülh, əməkdaşlıq arzumuzu dəfələrlə dilə gətirib. Amma biz hər şeyə hazır olmalıyıq. Düşmən bilmələdir ki, onun istənilən addımına adekvat cavab veriləcək. ”Dəmir yumruq” hələ də havadadır və düşməni əzməyə hazırdır”.

**Kənan Novruzov**



# “İŞİD Xorasan" qrupu “Taliban"a müxalifət ola bilər

## Sədrəddin Soltan: “ABŞ “İŞİD Xorasan”ı izləmək məqsədilə Əfqanıstanda “Taliban”a yardım edə bilər”



Ötən gün İŞİD terror təşkilatı Əfqanıstanın paytaxtı Kabildə ardıcıl altı partlayış törətdi. Teraktın İŞİD terror təşkilatının Xorasan qrupu tərəfindən törədildiyi bildirildi. Qeyd edək ki, İŞİD-K daima Əfqanıstanın şərqində, İran sərhədindəki şiələri hədəf alaraq qanlı hücumlar təşkil edib. Ancaq zaman-zaman ölkənin şimalında və şərqində "Taliban"la İŞİD-in Xorasan qolu arasında qarşıdurmalar yaşanıb.

Hətta iki qruplaşma 2015-ci ildə bir-birlərinə qarşı müharibə elan edib. İŞİD-K dəfələrlə ”Taliban” yaraqlılarını öldürüb, onlarla əməkdaşlıq edənlərə hücumlar təşkil edib, ”Taliban”ın de-fakto rəhbərlərinin başlarını kəsib. Avqustun 26-da Kabildə Həmid Kərzai Beynəlxalq Hava Limanında terror törətməklə İŞİD qruplaşması özünü yenidən yada saldı. Bu terrorçu qruplaşmanın törətdiyi terror aktı nəticəsində 15 ABŞ hərbçisi olmaqla 200-ə yaxın insan öldü. Bu qanlı hadisənin məsuliyyətini ”İŞİD Xorasan” qruplaşması öz üzərinə götürdü. Regionda baş verən proseslər onu göstərir ki, Əfqanıstanda ”Taliban”a qarşı yeni müxalifət formalaşır?

**Orta Doğu Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Sədrəddin Soltan ”Şərq”ə açıqlamasında bildirib ki, əslində, bu, terroru törətməklə ”İŞİD Xorasan”ın bir sıra ismarıclar verdiyini ehtimal etmək olar.** Politoloq qeyd edib ki, əslində bu qruplaşma hakimiyyətdə təmsil olunmaq, həmçinin Əfqanıstanın bir hissəsinə iddia etməklə öz mövcudluğunu bildirmək istəyir: ”Çünki Əfqanıstanda Xorasan adlı bölgə mövcud deyil. Bu adda İranda əvvəllər bir əyalət olub. 2004-cü ildə bu əyalət mərkəzi Bocnurd olan Şimali Xorasana, mərkəzi Bircend olan Cənubi Xorasana və mərkəzi Məşhəd olan Xorasan-Rezaviyə bölündü. Tarixi Böyük Xorasana isə İran, Tacikistan, Əfqanıstan, Özbəkistan və Türkmənistan daxil olub. ”İŞİD Xorasan” bu ərazilərdə ”xilafət” yaratmağa iddia edir. Onların hədəfi ”Xorasandan başlayıb Qüdsədək hərəkət” etməkdir. Ümumiyyətlə, ideoloji baxımdan oxşar olsalar da, ”Taliban”la ”İŞİD Xorasan”ı bir-birindən bu kimi ideyalar fərqləndirir. ”Taliban” Əfqanıstanda, ”İŞİD”in adıçəkilən qruplaşması isə bütün müsəlman ölkələrini ”bir xilafətdə” birləşdirmək uğrunda mübarizə apardığını bildirir. Bu qruplaşma 2015-ci ildə ”Taliban”la Əfqanıstanda Nanqarhar, Gilmend, Fərəh və Zabul əyalətlərində toqquşmuşdu. Onda hər iki tərəf itki vermişdi. Həmin toqquşmadan sonra ”Taliban”ın sıralarından çıxaraq ”İŞİD Xorasan”a qoşulanların olduğuna dair xəbərlər yayılmışdı. Bu ay (2021-ci ilin avqustu) ”tələbələr” Kabili ələ keçirəndən sonra Əfqanıstan Milli Təhlükəsizlik Direktorluğunun həbsxanasından İŞİD-çilər istisna olmaqla bütün məhbusları sərbəst buraxmışdı. İŞİD qruplaşmasının 9 liderini, o cümlədən Əbu Ömər Xorasani təxəllüslü terrorçubaşını da edam etmişdi. Bu kimi hadisələr ”Taliban”la ”İŞİD Xorasan” arasında ziddiyyətin olduğunu ehtimal etməyə əsas verir. Yeri gəlmişkən, ”Əl-Qaidə” terror qruplaşması da ”tələbələr”ə yuxarıdan aşağı baxır, onları ”savadsız” sayır. Deməli, ”İŞİD Xorasan” Əfqanıstanda gərginliyin davam etməsi və yeni toqquşma üçün mənbə ola bilər. ABŞ iddia edir ki, ”xorasançılar”ın mövqelərini pilotsuz uçuş aparatları ilə vurub. Bu isə deməyə əsas verir ki, onların Əfqanıstanda mövcudluğu Birləşmiş Ştatlara çoxdan məlumdur. Onda İŞİD-in yenidən zühurunda hədəflərdən biri də İran daxil olmaqla ”Böyük Xorasan”a aid dövlətləri və Rusiyanı təhdid etməkdir. Nəzərə almaq lazımdır ki, Rusiyanın Tacikistan ərazisində hərbi bazası var”.

**S.Soltan əlavə edib ki, regionda üçüncü dövlətdə islam adı altında yenidən hakimiyyət formalaşdırılacaq:** ”Pakistan və İrandan sonra ”Taliban” yenidən Əfqanıstanda buna cəhd edəcək. Pakistan İslam Respublikası demokratik dəyərlərə daha çox üstünlük verən, siyasi rəqabətli, daha çox inkişaf etmiş, tolerant dövlətdir və s. İran İslam Respublikası isə məzhəb prinsipləri ilə idarə edilən, İsrail və ABŞ-ın məhv olmasını hədəfləyən hakimiyyətdir. ”Taliban” Əfqanıstanda bu iki qonşu dövlətdən hansının modelini götürəcək? Məlumata görə, ”tələbələr” qarşıdan gələn iki həftə ərzində yeni hakimiyyətin tərkibini açıqlayacaq. Onlar artıq Əfqanıstanın 34 əyalətindən 33-nə yeni vali təyin ediblər. Yeni hakimiyyətdə ölkədəki bütün etnik qrupların liderlərinin təmsil olunacağı bildirilir. Yeri gəlmişkən, Əfqanıstan İslam Partiyasının lideri Gülbəddin Hikmətyar bildirib ki, keçmiş dövlət başçısı, puştun etnik qrupunun nümayəndəsi Həmid Kərzai və sabiq xarici işlər naziri, tacik etnik qrupundan olan Abdullah Abdullahın ev dustağı olmaları barədə yayılan məlumatlar əsassızdır və hər iki siyasətçi fəaliyyətini davam etdirir. ”Taliban” bildirib ki, yeni hökumətdə ilk növbədə ədliyyə, daxili təhlükəsizlik, müdafiə, xarici işlər, maliyyə, informasiya sahələrinə dair nazirlər və Kabil şəhərinin işləri üzrə xüsusi administrasiya təyin olunacaq. Belə ehtimal etmək olar ki, türklərin lideri marşal, Əfqanıstanın keçmiş vitse-prezidenti Əbdül Rəşid Dostum və taciklərin başçısı Əhməd şah Məsudun oğlu Əhməd Məsud, yaxud onların təmsil etdiyi siyasi qüvvə də koalisiyada iştirak edəcək. Çünki hər iki qüvvənin ”tələbələr”ə qarşı silahlı müqaviməti dayandırması onlara vədlər verildiyini düşünməyə əsas verir. Fikrimcə, Türkiyənin ”Taliban”la münasibəti həm də onların türklərə yanaşmasından daha çox asılı olacaq. Beləliklə, Əfqanıstanda yeni hakimiyyətin formalaşacağı elan olunub. ABŞ Kabil hava limanında terror törədənlərə xəbərdarlıq edib. Prezident Cozef Bayden deyib: ”Bu hücumu edənlər, Amerikaya kin-nifrət bəsləyənlər onları bağışlamayacağımızı bilirlər. Biz sizi izləyib əvəzini ödəməyə məcbur edəcəyik”. Bu baxımdan ABŞ ”İŞİD Xorasan”ı izləmək məqsədilə Əfqanıstanda ”Taliban”a yardım edə bilər. Amerika və NATO-dakı müttəfiqləri Əfqanıstanı tərk etməyə başlayandan sonra ”tələbələr” fəallaşdı və üç ay ərzində mərkəzi, legitim hakimiyyəti devirərək Əfqanıstana nəzarəti ələ keçirdi. Bununla yanaşı, ”İŞİD Xorasan” da ölkədə fəallaşdı. Belə çıxır ki, bu qruplaşma ”Taliban”a müxalifət rolunda çıxış edəcək, onun İran və antiqərb blokuna yaxınlaşmasına mane olacaq. Zatən Əfqanıstanın da siyasi tarixində bu ziddiyyət çox ciddi amil olub. Hələ ki ”Taliban” ölkədə vəziyyəti sabitləşdirməyə, gərginliyi azaltmağa çalışır”.

**Aynurə Pənahqızı**

---

**Azər Qasımov:**
*“Türkiyə ilk növbədə daha çox Əfqanıstanda gələcəyə hesablanmış planların həyata keçirilməsinə zəmin hazırlamağa çalışır”*

**Rusif Məmmədsoy:**
*“Türkiyə hazırda həssas dönəmdən keçir”*

# Türkiyə Əfqanıstan qaçqınlarına "yox" deyir




Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu Ankaranın miqrasiya ilə bağlı mənəvi və humanitar öhdəliklərini tam şəkildə yerinə yetirdiyini açıqlayıb. O, almaniyalı həmkarı Heiko Maas ilə danışıqlardan sonra Antalyada keçirdiyi mətbuat konfransında deyib ki, Ankara Əfqanıstandan olan qaçqınlara sığınacaq verə bilməyəcək.

Çavuşoğlu vurğulayıb ki, Türkiyə miqrasiya ilə bağlı mənəvi və humanitar öhdəliklərini tam şəkildə yerinə yetirib və əlavə qaçqın dalğasından söhbət gedə bilməz. Qeyd edək ki, Hakim Ədalət və İnkişaf Partiyasının rəsmi nümayəndəsi Ömər Çelik daha əvvəl ölkənin əlavə olaraq bir miqrant qəbul etməyə belə resursları yetərli olmadığını və Türkiyənin bir qaçqın düşərgəsi olmadığını söyləmişdi. Prezident Rəcəb Tayyib Ərdoğan öz növbəsində, Ankaranın Əfqanıstandakı vəziyyəti yaxından izlədiyini və qaçqın probleminin effektiv şəkildə həlli üçün digər dövlətlərlə birlikdə çalışdığını ifadə etmişdi. Bəs, Türkiyə bu addımında nə dərəcədə haqlıdır?

**Türkiyənin müsəlman dünyasının lideri olmaq yolunda addımlar atan ölkə kimi hər zaman əzilən müsəlmanların arxasında durduğunu əyani şəkildə nümayiş etdirdiyini deyən BAXCP sədrinin müavini, politoloq Azər Qasımov deyib ki, Əfqanıstanda gedən proseslər bir çox məsələlər baxımından ”müsəlman dünyası” kontekstindən çıxıb.** O qeyd edib ki, buradakı proseslər daha çox güc mərkəzlərinin geosiyasi oyunları şəklini alıb: ”ABŞ, Böyük Britaniya, Çin, Rusiya, eləcə də, Qətər, Səudiyyə Ərəbistanı, İran, Pakistan, Türkiyə, hətta Hindistan kimi ölkələr arasında geosiyasi və geoiqtisadi maraqların bu ölkələr arasında rəqabət və qarşıdurmasına çevrilib. Türkiyə gedən bu oyunları yaxşı bilir, hətta bu oyunların içərisindədir. Odur ki, Türkiyənin əlavə əfqan qaçqınları qəbulu məsələsi də bu oyunların çərçivəsində dəyərləndirilməlidir. Türkiyə ilk növbədə bu hərəkətlə öz iqtisadi və təhlükəsizlik maraqlarını qorumaq istəyirsə, daha çox Əfqanıstanda gələcəyə hesablanmış planların həyata keçirilməsinə zəmin hazırlamağa çalışır. Əsas məqsəd hazırda Əfqanıstanda hakimiyyəti ələ almış ”Taliban”la münasibətləri ordan qaçan Amerika işbirlikçilərinə görə korlanmasını istəməməsidir. Hesab edirəm ki, Türkiyə heç vaxt ona pənah aparan insanların ümidlərini qırmaz. Sadəcə, onlara dəstək olsa da, geniş ictimaiyyət bilməyəcək”.

**Politoloq Rusif Məmmədsoy isə ”Şərq”ə açıqlamasında Türkiyənin bu məsələdə son dərəcə haqlı olduğunu bəyan edib. O qeyd edib ki, Türkiyə hazırda həssas dönəmdən keçir:** ”Bilirsiniz ki, meşə yanğınları, pandemiya və sair bu kimi amillər Türkiyə iqtisadiyyatına ciddi təsir göstərdi. Bu mənada da qardaş ölkəyə yeni qaçqın axınının olmasından söhbət belə gedə bilməz. Bundan əlavə, bunu cəmiyyət də istəmir. Çünki suriyalıların orada var olmasından heç də hər kəs xoşbəxt deyil. Bu mənada fikrimcə, rəhbərlik yeni bir dalğaya imkan verməyəcək. Hesab edirəm ki, burada əsas məsələ sırf iqtisadi amillərlə bağlıdır”.

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

# "Biz qayıtmışıq"

### "Prezidentimizin işğaldan azad olunmuş ərazilərə edilən hər səfəri özü ilə yeni bir ruh gətirir"

Torpaqlarımızın işğaldan azad edilməsindən sonra müzakirə olunan mühüm məsələlərdən biri uzun müddət məcburi köçkün həyatı yaşamış insanlarımızın öz yurdlarına qayıtması ilə bağlıdır. Müharibə başa çatdıqdan sonra bu istiqamətdə ciddi və sistemli addımlar atılmaqdadır. Bu addımlar öz miqyasına, çoxşaxəliliyinə, regional və qlobal əhəmiyyətinə görə diqqət çəkir.

İlkin olaraq yol-nəqliyyat və enerji infrastrukturun bərpası ilə bağlı layihələr həyata keçirilir. İlk bərpa edilən kəndlər Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndləri olacaq. Bu kəndlər "ağıllı" kənd pilot layihəsi çərçivəsində yenidən qurulacaq. 4-5 aydan sonra mərhələli şəkildə insanların doğulub boya-başa çatdıqları torpaqlara geri dönəcəyinin anonsu verilir. Quruculuq və bərpa işlərini sürətləndirmək üçün işğaldan azad olunan ərazilərdə 3 beynəlxalq hava limanı da fəaliyyət göstərəcək. Füzuli aeroportu bu ilin payızında istifadəyə veriləcək. Zəngilan hava limanının təməli qoyulub, Laçında isə inşaat üçün yer seçimi yekunlaşmaq üzrədir.

Qeyd etmək gərəkdir ki, post-konflikt bərpa dövründə hava limanlarının rolu çox böyükdür. Başlıca olan səbəblərdən biri də odur ki, nəqliyyat-logistika baxımından bu bölgəyə çatdırılacaq malların, gediş-gəlişin bərpası, aparılan infrastruktur, quruculuq layihələrinin və bərpa prosesinin sürətləndirməsinə gətirib çıxaracaq.

Prezident İlham Əliyev Şuşada Vaqif Poeziya Günlərinin rəsmi açılışında çıxışı zamanı böyük qayıdışdan danışıb. Dövlət başçısı vurğulayıb ki, ötən gün təməli qoyulan yeni yaşayış kompleksi Şuşanın Baş Planı əsasında inşa ediləcək. Ölkə rəhbəri diqqətə çatdırıb ki, yaşayış kompleksində birinci mərhələdə 25 yaşayış binasının inşası nəzərdə tutulur: "Birinci mərhələdə orada 25 yaşayış binasının inşası nəzərdə tutulur, üç, dörd və beşmərtəbəli yaşayış binaları ki, vətəndaşlar artıq Şuşaya qayıtmağa başlasınlar. Bu kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir və şuşalılar Şuşaya qayıdırlar. Həm qrup-qrup gəlirlər, öz doğma şəhərinə, şəhərini ziyarət edirlər. Eyni zamanda, burada artıq açılmış obyektlərdə şuşalılar işlə təmin edilir. Beləliklə, biz Şuşanı yenidən dirçəldəcəyik". Prezident bundan əvvəlki çıxışlarında bildirib ki, bizim əsas rəqibimiz zamandır və hər kəs anlamalıdır ki, burada da zamana ehtiyac var: "Lakin biz vətəndaşlarımızı ən qısa müddət ərzində qaytaracağıq". Dövlət başçısı avqustun 24-də BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi xanım Vladanka Andreyevanı qəbul edərkən də deyib ki, rəsmi Bakı BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı ilə təmasdadır: "Mümkün olan ən qısa müddətdə bütün keçmiş məcburi köçkünləri orada yenidən məskunlaşdırmağı planlaşdırırıq".



**Millət vəkili Azər Badamov "Şərq"ə açıqlamasında bəyan edib ki, Prezident İlham Əliyevin "Qarabağın yenidən qurulması və bərpasında bizə rəqib olan zamandır" ifadəsi real həyatda öz təsdiqini tapıb.** Deputatın sözlərinə görə, Azərbaycanın rəşadətli ordusunun torpaqlarımızı erməni işğalından azad etməsindən cəmi 9 ay vaxt keçib: "Bu müddətdə işğaldan azad olunmuş ərazilərdə görülən işlərin, icra olunan layihələrin əhatə dairəsi o qədər genişdir ki, hətta iki Lüksemburq ölkəsinin yenidən tikilməsinə bərabərdir. Bu, bəzi dövlətlər üçün bir yuxu kimi görünür. Azərbaycan bu illər ərzində ancaq işğala son qoydurmaq üçün müharibəyə hazırlaşmadı. Həm də müharibədən sonrakı dövrdə işğaldan azad olunmuş torpaqların yenidən qurulmasına, bərpasına və Böyük Qayıdışın həyata keçirilməsinə hazırlaşırdı. Əgər Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin iqtisadi gücü zamanında formalaşmasaydı, bizim üçün müharibənin aparılması və sonradan azad olunmuş ərazilərin bərpası çətin olacaqdı. Bu gün isə biz torpaqlarımızı azad etdik və heç kimin dəstəyi olmadan, heç kimdən borc almadan işğaldan azad olunmuş əraziləri cənnətə çeviririk. Füzuli hava limanında son tamamlama işləri gedir, ağıllı kənd layihələri icra olunur, yol və sosial infrastruktur müasirləşir. Tarixi-mədəni abidələrə yeni həyat verilir, milli-mənəvi dəyərlərini özündə əks etdirən şəhərlərin baş planı təsdiq olunur. Ərazilər minalardan təmizlənərək təhlükəsiz həyat şəraitinin qurulması üçün işlər görülür. Bu həm də Azərbaycanın gələcəyə olan baxışlarının göstəricisidir".

**A.Badamov qeyd edib ki, Ermənistanın torpaqlarımızı işğal etməsində məqsədi talamaq, dağıtmaq, saxta yollarla özününküləşdirmək olmuşdusa, Azərbaycanın məqsədi yaratmaq, yenidən bərpa etməkdir:** "Biz əsl tarixi özünə qaytarmaq və 30 il erməni əsarətində olmuş torpaqlara yenidən azad nəfəs vermək niyyətindəyik. Prezidentimizin işğaldan azad olunmuş ərazilərə edilən hər səfəri özü ilə yeni bir ruh gətirir və düşmənlərimizə yeni mesajlar verir - Biz qayıtmışıq! Qarabağ Azərbaycandır!".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Ermənistan və Rusiyaya xəbərdarlıq mesajı verildi

### Elçin Xalidbəyli: "Rəsmi Bakı anlatdı ki, Cənubi Qafqazda şəriksiz geopolitik iradə sahibi məhz Azərbaycandır"

Bir neçə gün bağlı saxlanılan Gorus-Qafan yolu açılıb. Zəngəzur qubernatorunun müavini Narek Babayanın açıqlamasına görə, Azərbaycan tərəfi müəyyən şərtlər irəli sürməklə yoldan istifadəyə icazə veriblər. Bildirilib ki, ordumuz yolda ziqzaqvari bloklar yerləşdirəcək. Səbəb kimi mümkün təhlükədən sığortalanmaq və müşahidə kameraları vasitəsilə avtomaşınların keçidinə nəzarət etmək göstərilib. Qafan şəhərinin meri Gevorq Parsyan da Zəngəzur bölgəsindən keçən Gorus-Qafan avtomobil yolunun tamamilə açıldığını söyləyib:

"Yol tamamilə açıqdır, yaşayış məntəqələri ilə əlaqə bərpa edilib". Ermənistan tərəfi bildirib ki, Gorus-Qafan avtomobil yolu Ermənistan-İran sərhədinə çıxdığından nəinki regional, həm də dövlətlərarası əhəmiyyətə malikdir.

**Yolun bir müddət bağlı saxlanması ilə bağlı "Şərq"ə danışan siyasi şərhçi Elçin Xalidbəyli deyib ki, Gorus-Qafan yolunu bağlamaqla, Azərbaycan bir neçə məsələni eyni vaxtda həll etmiş oldu.** Politoloqa görə, rəsmi Bakı Paşinyan hakimiyyətinə anlatdı ki, Azərbaycan Ermənistanın hərbi-siyasi təxribatlarını cavabsız qoymayacaq və Ermənistan hər dəfə cəzalandırılacaq: "Gorus-Qafan yolunun bağlanmasını da rəsmi Bakı elə iki erməni hərbçinin Azərbaycan sərhədçisinə hücum edib, xəsarət yetirməsinə cavab olaraq, əsaslandırdı. Bu yolun bağlanması ilə Azərbaycan Ermənistanın cənubu ilə şimalı arasında əsas nəqliyyat-kommunikasiya xəttini kəsmiş oldu. Nəticədə Ermənistan müəyyən mənada, iki yerə parçalanmış oldu. Bu, Ermənistan üçün ağır zərbə xarakteri daşıyırdı. İkinci, rəsmi Bakı Ermənistana və onun himayədarlarına onu da anlatdı ki, Cənubi Qafqazda şəriksiz geopolitik iradə sahibi məhz Azərbaycandır. Yəni Paşinyan hakimiyyəti Ermənistanın himayədarlarının təlimatlarına deyil, məhz rəsmi Bakının maraqlarına daha həssas yanaşmalıdır. Əks halda, Azərbaycan daha sərt addımlar ilə rəsmi İrəvan üçün ciddi problemlər yarada bilər".

**Ekspertin fikrincə, Gorus-Qafan yolunun bağlanması həm də müəyyən mənada, Laçın dəhlizi ilə bağlı Ermənistana və Rusiyaya ciddi xəbərdarlıq mesajı da sayıla bilər:** "Çünki bu yoldan və Laçın dəhlizindən keçməklə, Azərbaycan ərazilərinə - Xankəndi və ətraf bölgəyə rəsmi Bakını məmnun etməyən yüklər daşınırdı. İndi bu proses böyük ölçüdə rəsmi Bakının nəzarəti altına düşdü. Rəsmi Bakı Azərbaycan ərazilərinə qeyri-humanitar yüklərin daşınacağı təqdirdə, Laçın dəhlizini də nəzarətə götürə biləcəyini vurğulamış oldu. Bakı əslində, Gorus-Qafan yolunu bağlamaqla, Laçın dəhlizi və Xankəndi əməliyyatına start verdi. Ən yaxın vaxtlarda bu əməliyyata başlamaq üçün tam hazır olduğu barədə sərt xəbərdarlıq etmiş oldu".

**E.Xalidbəyli bəyan edib ki, yolun bağlanması Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiya və demarkasiya prosesini müəyyən mənada təmin etdi:** "Ermənistanın Baş naziri Nikol Paşinyan rəsmi Bakının tələbi üzrə həmin əraziləri Azərbaycana məxsus olduğunu etiraf etdi. Erməni baş nazir Eyvazlı və Çayzəmi kəndlərinin adlarını Azərbaycan toponimi ilə səsləndirərək, ölkəmizin sərhədlərini Gorus-Qafan yolu istiqamətində rəsmən tanımış oldu. Bu baxımdan Gorus-Qafan yolunun bağlanmasını həm də Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiyası və demarkasiya prosesinə başlanması kimi də dəyərləndirmək olar. Bu hadisə Azərbaycan üçün olduqca böyük əhəmiyyət daşıyır. Daha önəmli nəticələri yaxın gələcəkdə qabarıq şəkildə ortaya çıxacaq".

**İsmayıl Qocayev**

# “Laçın dəhlizi ilə bağlı razılaşmaya yenidən baxılmalıdır"

## Rəfail Becanov: “Proses və təxribatlar dərinləşdikcə, Azərbaycan tərəfi qəti qərar verməк məcburiyyətində qalacaq”



"Ermənistanın təxribatları, Rusiya sülhməramlılarının öz üzərlərinə götürdükləri missiyanı tam yerinə yetirməmələri Laçın dəhlizinin fəaliyyətinə yenidən baxılmasını zəruri edir. Ona görə ki, Ermənistan təxribatlarını sistemli şəkildə davam etdirir və Rusiya tərəfi də baş verənlərə faktiki göz yumur. Rus sülhməramlı missiyasının cavabdeh olduğu ərazidə bir növ yeni silahlanma tendensiyası yaşanır".

Bunu siyasi şərhçi Rəfail Becanov deyib. O bildirib ki, sülhməramlıların cavabdeh olduğu ərazilərə ermənilərin bu şəkildə, hətta silahlı şəxslərin rahat gəlib-getməsi davam edərsə, Laçın dəhlizi ilə bağlı razılaşmaya yenidən baxılmasından başqa çarə qalmır: ”Proses və təxribatlar dərinləşdikcə, Azərbaycan tərəfi qəti qərar vermək məcburiyyətində qalacaq. O qərar isə Laçın dəhlizinin bağlanmasıdır. Çünki ermənilər özləri də, silahları da ancaq o dəhlizlə Xankəndinə daşınır. Rusiya tərəfi isə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək əvəzinə, Azərbaycana qarşı təhdid və xoş olmayan addımlar sərgiləyir. Laçın dəhlizində keçirilən təlimlər bunun işarəsidir. Bu təlimlərlə Azərbaycana təzyiq niyyəti güdülür. Rusiya Federasiyasının Müdafiə Nazirliyinin ”təlim simulyasiya edilmiş düşmənin pilotsuz təyyarələrindən istifadə edərək, mümkün pozuntuların qarşısını almaq, müşahidə məntəqələrində təhlükəsizliyi təmin etmək məqsədi daşıyır” məlumatı əslində əzələ nümayişidir. Bu, təlimin motivindən aşkar bilinir. Ermənistanın PUA-sı, pilotsuz təyyarəsimi var? Ermənistan ordusu 44 gündə darmadağın olub. Onun özünə gəlməsi üçün bəlkə də 44 il lazımdır!”.

R.Becanovun fikrincə, Rusiyanın bu təlimi Azərbaycana qarşıdır: ”Rusiya tərəfi hesab edir ki, təxribatlar davam edərsə, Azərbaycan Laçın dəhlizini bağlamaq üçün 44 günlük müharibənin ən müasir taktikasını tətbiq edə və PUA-larla prosesi nəzarətə götürə bilər. Ona görə də əsas motiv PUA-lara qarşı təlimlər seçilib. Laçın dəhlizini bağlamaq və ya istifadəsinə şərait yaratmaq Azərbaycanın suveren hüququdur. Zəngəzur dəhlizinin açılması əngəlləndikcə, Rusiya üçtərəfli bəyanatın şərtlərini yerinə yetirməsi üçün Ermənistana təzyiq etmədikcə və sülhməramlı missiyanın cavabdeh olduğu ərazilərdə silahlı birləşmələrin tam tərksilah olunması həyata keçirilmədikcə, Azərbaycan öz suveren hüququndan istifadə etməlidir. Rusiya sülhməramlı missiyasının cavabdeh olduğu ərazilərdə göstərdiyi fəaliyyət ATƏT-in Minsk qrupunun 30 illik dönəmdə sərgilədiyi fəaliyyətdən heç nə ilə fərqlənmir. Sülhməramlılar da ATƏT-in Minsk qrupu kimi ikili standartla fəaliyyət göstərir, missiyalarını yerinə yetirməkdən çox missiyalarına daxil olmayan fəaliyyətlərlə məşğul olurlar. Gah humanitar aksiyalar təşkil edirlər, gah da erməniləri kilsələrə daşıyırlar... Kilsəyə erməni daşımaq sülhməramlı missiyadırmı?”.

**Aynurə Pənahqızı**

## İlk doz vaksinin qoruyuculuğu yoxdur

Rəşad Mahmudov: “Arzuolunan müsbət nəticələr ikidozu tamamlanmış, üzərindən iki həftə keçmiş insanlar üçün keçərlidir”

**”Koronavirus dalğasının növbəti mərhələsindəyik. Bu dövr ərzində vurdurduğumuz ilkdoz və təkdoz peyvəndlər bizi təhlükələrdən qorumur. Sayıqlığı əldən verməməliyik, gigiyenik qaydalara, karantin şərtlərinə əməl etməliyik, arxayınçılığa əsasımız yoxdur! Unutmayaq ki, arzuolunan müsbət nəticələr ikidozu tamamlanmış, üzərindən iki həftə keçmiş insanlar üçün keçərlidir”.**

Medicina.az xəbər verir ki, bu sözləri Nazirlər Kabineti yanında Operativ Qərargahın üzvü, Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov bildirib:

”Mərkəzi Gömrük Hospitalında aparılan ilkin statistik analizlər və müşahidələrimizə görə, müalicə alan xəstələr arasında vaksin vurdurmuş xəstələr olsa da, həyatını itirənlər arasında iki doz vaksin olunmuş xəstə olmayıb.

İkinci doz vaksin almış və reanimasiya düşmüş xəstə sayı 1 nəfər olub. O da sonradan tam sağalmış və məlum olmuşdur ki, xəstə qospitalizasiya olmamışdan əvvəl ev şəraitində dekzametazon istifadə edib.

Ən az iki doz vaksin olunmuş, kovidə yoluxmuş xəstələrimiz, ev şəraitində tövsiyə olunmayan dərmanlar qəbul etməsəniz, həyatınız üçün heç bir təhlükə olmadığına əmin olun, tam arxayınlıqla virusa qalib gələcəyinizə inanın.

Ölkəmizdə tətbiq olunan bütün növ vaksinlər etibarlı qoruyucular, immunitetimizi bu virusla mübarizədə lazımı səviyyəyə qaldıran dünya tərəfindən qəbul edilmiş preparatlardırlar”.

# Ölüb-dirildik

## KOVİD-lə, nəhayət, bizim ailə də tanış oldu




**Kənan Novruzov**

Dünyadakı və ölkədəki jurnalistlərin əksəriyyəti kimi mən də meydana çıxdığı ilk gündən etibarən - təxminən iki ildir ki, sərasər koronavirus pandemiyasından yazıram və yazmaqda davam edirəm. Yəqin, sözügedən xəstəlik vəba, sara, mers və digərləri kimi tarixə qovuşanadək fəaliyyətimizin əsas istiqaməti olaraq qalacaq.

Ötən iki il ərzində bəzən bədbin proqnoz verdik, bəzən nikbin. Yoluxma sayı artanda SOS siqnalı çaldıq, azalanda sevindik. Bəzən təbii mənşəli olduğunu yazdıq, bəzən bioloji silah olduğunun bəyan etdik. Bəzən inandıq, bəzən isə yox...

Xeyli çətin mərhələlərdən keçdik. İşə qorxa-qorxa getdik, yollarda qaldıq, evdən tez çıxıb, gec qayıtdıq. Amma medianın funksiyasını və üzərimizə düşən məsuliyyəti nəzərə alaraq dözdük, səbr etdik. Ən çox güc verən isə ən yaxın zamanda xəstəliyin bitəcəyinə olan ümid idi. Deyəsən, jurnalistlərin ümidi ən sonda ölür. Əks halda ictimai şüuru necə formalaşdıra bilərik ki?

Yaxınlarımızdan, dosttanışdan yoluxan olanda ”Allah şəfa versin” dedik. Ancaq insanın öz başına gəlməsi başqa imiş...

Bizim ailə də virusdan yan keçmədi. Anam yoluxdu. İlk günlər ciddi əhəmiyyət vermədik. Elə bildik ki, həmişəki asqıraq, öskürəkdir. Amma koronavirusun üzü qara olsun, dünyamızı dəyişdiyi (və dəyişməkdə davam etdiyi kimi) xəstəlikləri də ”yenilədi” sanki.

Bir neçə gün sonra yüksək hərarət özünü göstərdi. Vəziyyət o həddə çatdı ki, gecə ilə tanış həkimlərdən birinə - Fəxranə Hüseynzadəyə müraciət etdim. Sağ olsun, müəyyən profilaktik tövsiyələr verdi, qəbul etmək üçün dərman adları dedi. Sonra təcili tibbi yardım çağırdıq. Ciyərlərimi yoxlayan həkim hər şeyin qaydasında olduğunu bildirəndə sevindik. Və həm də təəccübləndik: elə isə haradandır bu qızdırma? Axı indiyədək heç belə olmayıb.

Test götürüb getdilər.

Səhəri gün başqa həkimə




(Şahvələd Məmmədov) mesaj yazdım, simptomları bildirdim. ”Böyük ehtimal, koronadır” - dedi. Və əlavə etdi: ”İndi qızdırmaların 90 faizi KOVİD mənşəlidir. Narahat olmayın, kritik dövr on gündür”.

...Qızdırma imkan vermirdi. Bir yandan da əvvəl tək-tək olan öskürək artıq boğulma həddinə çatmışdı. Anam ayağa dura, iş görə bilmirdi. Mətbəx boş qalmışdı...

Temperaturu aşağı salmaq üçün gündə beş-altı dəfə ”parasetamol” içirdi. Yenə məcbur olub həmin həkimlərdən bu qədər dərman qəbul etməyin ziyanının olub-olmadığını soruşdum. Dedilər ki, narahat olma. Onsuz da başqa çarə yox idi. Bir az gecikən kimi hərarət güc gəlirdi.

Testin nəticəsi pozitiv çıxanda bir tərəfdən üzüldük, bir tərəfdən sevindik. Sevindik ona görə koronavirusla bəşəriyyət və cəmiyyət olaraq artıq tanış idik. Türklər demiş, haşır-neşir olmuşduq. Nə etmək lazım olduğunu da az-çox bilirdik. Və bunu ən yaxşı bilənlərdən də biri, yəqin mən idim. Ən başlıcası xəstəliyə psixoloji cəhətdən qalib gəlmək, onu üstələməkdir.

İşə getmirdim. Gedə də bilməzdim. Çünki xasiyyətimə bələdəm. Ağlımın evdə qalacağına, yazdığımdan nəinki oxucunun, heç özümün də bir şey anlamayacağına əmin idim. Odur ki, evdən işləməyə başladım. Anamın öskürək səslərini, təngnəfəsliyini eşidə-eşidə.

Məşhur fikrin bir daha təsdiqini tapdım: insan ən çarəsiz vaxtında Tanrını yada salır. Doğrudan da, elə oldu.

Beləliklə, birlikdə mübarizə aparmağa başladıq. Adətən qızdırmanın üç gün çəkdiyini deyirlər. Amma hərarət növbəti günlər də davam etdi- aşağı-yuxarı bir həftə. İstilik tamamilə gedəndən sonra isə öskürək şiddətləndi. Amma Şahvələd həkim haqlı imiş: on gündən sonra vəziyyət xeyli düzəldi. Daha qızdırma yoxdur, öskürək də tək-tük. İndi anam daha mətbəxə girə bilir. Hətta mənə gün ərzində sayını itirdim qədər çox çay da verir...

Bununla biz də indiyədək sadəcə adını bildiyimiz, haqqında çox eşitdiyimiz KOVİD cənabları ilə tanış olduq. Necə deyərlər, ölüb- dirildik. O qədər qorxulu deyilmiş... Məşhur türk şairi Cemal Süreyanın dediyi kimi, ölüm kimi bir şey olur, amma kimsə ölmür. Daha doğrusu, adətən kimsə ölmür...

Mənim növbəm nə vaxt çatacaq, nə zaman yoluxacam, bilmirəm. Şübhəsiz, anidən olacaq. Bəlkə də ən gözləmədiyim anda. Hər halda hər kəsin növbəsi var.

Növbəmi gözləyirəm. Haçansa yoluxsam, KOVİD-li günlərimlə bağlı bir yazı yazacağıma söz verirəm.

**P.S:** *Ən qəribəsi və hələ də başa düşmədiyim isə budur: necə olur ki, bütün gün mən metroda, avtobusda olduğum halda, yoluxan evdən nadir hallarda çölə çıxan anam oldu? Qoy, bu sual da ədalətsiz dünyadan ədalət gözlədiyimizə görə bizim qəbahətimiz olsun. Əsas odur, hər şey yaxşı qurtardı.*

# Pandemiya ixtisas seçiminə də təsir edib

## Kompüter texnologiyaları, maliyyə, tibb və hüquq ixtisasları öncüllüyünü bu il də qoruyub saxlayıb

Dövlət İmtahan Mərkəzinin yaydığı məlumata görə, keçən il abituriyentlər Azərbaycan bölməsində I qrupda ən çox Bakı Dövlət Universitetinin "Riyaziyyat müəllimliyi", II qrupda Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə (tədris ingilis dilində) ", III qrupda Azərbaycan Dillər Universitetinin "Xarici dil müəllimliyi (ingilis dili üzrə)", IV qrupda Azərbaycan Tibb Universitetinin "Tibb", V qrupda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının "Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi" ixtisaslarına üstünlük verib.

Məlumata görə, III və IV ixtisas qrupunda Azərbaycan və rus bölməsinin abituriyentlərinin seçimi eyni olub. II qrupda rus bölməsinin abituriyentləri daha çox Azərbaycan Dövlət İqtisad Universitetinin tədrisi rus dilində olan "Maliyyə" ixtisasına meyl ediblər. I ixtisas qrupunda rus bölməsinin abituriyentləri Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "İnformasiya texnologiyaları", V ixtisas qrupunda isə Azərbaycan Dövlət İqtisad Universitetinin "Dizayn (sahələr üzrə)" ixtisasına üstünlük veriblər. Azərbaycan bölməsində I ixtisas qrupunda "Riyaziyyat müəllimliyi" ixtisasına marağın artmasını Təhsil Nazirliyinin pedaqoji ixtisaslara göstərdiyi qayğı ilə əlaqələndirmək olar. Oğlan abituriyentlər texniki və iqtisad, qız abituriyentlər isə humanitar ixtisaslara üstünlük veriblər.



Qeyd edək ki, bu gündən etibarən ali məktəblərə ixtisas seçimi başa çatır. Dövlət İmtahan Mərkəzindən verilən məlumata görə, I-V ixtisas qrupları üzrə 58207 elektron ərizə təsdiq edilib. Qeyd olunub ki, 2431 elektron ərizə isə yadda saxlanılsa da, hələlik təsdiq edilməyib. Bu il abituriyentlər ən çox hansı ixtisasları seçdilər?

**Əvvəlki illərlə müqayisədə bu il ixtisaslarda müəyyən qədər dəyişikliklərin olduğunu deyən təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında vurğulayıb ki, bu il abituriyentlərin seçimlərinə pandemiya xüsusilə təsir göstərib:** "Əvvəllər birinci ixtisas qrupunda abituriyentlər daha çox neft, qaz ixtisaslarına üstünlük verirdilər. Ancaq bu il hətta az bal toplayan abituriyentlər belə informasiya texnologiyalarına, informasiya təhlükəsizliyinə, kompüter mühəndisliyinə meyillənməyə başlayıblar. Bunun da əsas səbəbi pandemiya dövründə onlayn xidmətlərdən, eyni zamanda elektron xidmətlərdən istifadənin əhatə dairəsinin genişlənməsidir ki, şagirdlərimiz gələcək ixtisasları baxımından bunlara sanki meyillənməyə başlayıblar. İkinci ixtisas qrupunda əvvəllər abituriyentlərin ən çox müraciət etdiyi sahələr təbii ki, maliyyə ixtisası idi. Lakin indi iqtisadiyyat, eyni zamanda biznesin idarə edilməsinə çox ciddi meyillənmələr müşahidə olunmaqdadır. Bunun da əsas səbəbi yenə də pandemiya ilə bağlıdır. Çünki pandemiya dövründə onlayn ticarətin, onlayn biznesin inkişaf etməsi şagirdlərə gələcək karyeralarını bu istiqamətdə qurmağı qaçılmaz edir. Artıq bu il maliyyə və mühasibat, o cümlədən biznesin idarə edilməsi ixtisası müəyyən qədər digər ixtisaslar sırasında məğlub olmağa doğru gedir. Yəni əvvəllər bu ixtisaslar abituriyentlər tərəfindən daha çox müraciət olunanlar sırasında idi. Üçüncü qrupda bu il o qədər də ciddi dəyişiklik olmadı. Bu qrupda abituriyentlər hüquq, dövlət və ictimai münasibətlər ixtisasına daha çox meyillənirlər. Dördüncü ixtisasda isə çox maraqlı tendensiya yarandı. Yəni indiyədək tibb ixtisası öz aktuallığını qoruyur. Lakin bu il kənd təsərrüfatı ixtisaslarına maraq artıb. Xüsusən qida təhlükəsizliyinə və qida ehtiyacları ilə bağlı olan kənd təsərrüfatı ixtisaslarına meyillənmələr güclənib. Yəni müşahidələrimiz onu deməyə əsas verir ki, bu il abituriyentlərin ixtisas seçimində bir sıra ixtisaslara maraq artıb".

**Aynurə Pənahqızı**

---



# "Nə etsəm, yenə azdır"

## Kamil Həmzəoğlu: "Şəhidlərimizin ruhu qarşısında əlimdən gələni etməyə çalışıram və gələcəkdə də edəcəyəm"

İkinci Qarabağ müharibəsindən sonra bir çox ziyalılarımız şəhidlərimizin xatirəsini əbədiləşdirməyə başladılar. Müxtəlif kitablar yazıldı, filmlər çəkildi. Tanınmış jurnalist, "Etikxəbər.az" saytının baş redaktoru Kamil Həmzəoğlu (Həmidov) da bu prosesdən kənar qalmadı.

O, artıq xeyli müddətdir ki, şəhid ailələri ilə görüşür, qəhrəmanlarımız barədə yazılar yazır, onları ictimaiyyətə daha yaxından tanıdır. Beləliklə, həm də yetişməkdə olan nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması təmin edilir. Kamil bəy canını vətənə qurban edənlərdən yazır, onların kədərli, lakin həm də qürurlu, məğrur valideynləri ilə söhbətləşir. Və bu məqsədlə bəzən ən ucqar kəndlərə yol alır.

**Odur ki, "Şərq" olaraq belə böyük əzm və zəhmət tələb edən işlə bağlı həmkarımızla həmsöhbət olduq:**

**- Kamil bəy, müntəzəm olaraq şəhid ailələrini ziyarət etməyiniz öz təşəbbüsünüzdür, yoxsa bunu hansısa layihə çərçivəsində reallaşdırırsınız?**

- Əvvəla, onu deyim ki, şəhid mövzusu mənim üçün yeni deyil. Artıq otuz üç ildir, yəni 1988-ci ildən jurnalistikadayam. Mətbuatdakı ilk illərim Birinci Qarabağ müharibəsinə təsadüf etdi. O zaman texniki imkanlar indiki kimi deyildi. Məlumat toplamaq çətin idi. Buna rəğmən, şəhidlərimiz haqqında silsilə yazılar yazır və həmin materialları 1991-1994-cü illərdə "Aydınlıq", "Açıq söz", "Zaman", "Vətən səsi", "Səs" qəzetlərində və digər mətbu orqanlarda dərc etdirirdim. İndiki müsahibələrim, reportajlarım da şəxsi təşəbbüsümdür. Burada hansısa layihədən söhbət belə gedə bilməz.

Kimsənin dəstəyi, yardımı olmadan bu müqəddəs işi, vəzifəni vicdanla, şərəflə yerinə yetirməyə çalışıram. Çünki bu, mənim üçün vicdan məsələsidir. Bu mənim Allah, qəhrəmanlarımızın, şəhidlərimizin ruhları və onların özləri kimi qəhrəman ailələri qarşısında borcumdur. Vətəndaş, jurnalist kimi vəzifəmdir. Elə buna görə də onlara söyləyirəm, xahiş və rica edirəm, bəzən də yalvarıram ki, mənə "sağ ol" deməyin, minnətdarlıq etməyin. Çünki ən böyük minnətdarlıq da, sağ ol da şəhidlərimizə, onların ailələrinə düşür.

**- Fəaliyyətiniz artıq neçə müddətdir davam edir? İndiyədək hansı rayonlarda olmusunuz?**

- Oktyabr ayından şəhid ailələrini ziyarət edirəm. O vaxtdan etibarən hər ayın 27-28 günü, demək olar, rayonlarda keçir. Balakəndən Astaraya, Xaçmazdan Gəncəyə, Mingəçevirdən Bərdəyə, Kürdəmirdən Goranboyadək onlarla rayonda, kənd və qəsəbələrdə olmuşam. Görüşə bilmədiyim şəhid ailələri ilə müxtəlif tədbirlərdə tanış olmağa, söhbətləşməyə çalışıram.

> **"Oktyabr ayından şəhid ailələrini ziyarət edirəm. O vaxtdan etibarən hər ayın 27-28 günü, demək olar, rayonlarda keçir"**

Nəzərinizə çatdırım ki, hazırladığım materialları rəhbəri olduğum "Etikxəbər" saytında, "Facebook" səhifəmdə yayımlayıram. Əlbəttə, bu, böyük iş deyil. Ancaq şəhidlərimizin ruhu qarşısında əlimdən gələni etməyə çalışıram və gələcəkdə də edəcəyəm. Nə etsəm də, yenə azdır. Əslində heç nə etməmişəm.

**- Şəhid ailələri ilə söhbət yəqin ki, o qədər asan olmur. Bunu necə bacarırsınız?**

- Onlara qarşı münasibət hər kəsdən, xüsusilə qələm adamından xüsusi həssaslıq tələb edir. Çünki kifayət qədər həssas, duyğusal olurlar. Adi bir söz, kəlmə xətirlərinə dəyə, qürurlarını incidə bilər. Təsadüfi deyil ki, uzun illərdir mediada olmağıma rəğmən, şəhid ailələri ilə söhbət zamanı böyük həyəcan keçirirəm, əl-ayağım əsir. Onlarla birlikdə ölüb-dirilirəm.

**- Bu fəaliyyətiniz dövründə ən təsirli epizod nə olub?**

- Həmişə özümü toparlamağa, həyəcanımı büruzə verməməyə çalışmışam. Ancaq Musa və Tural Həsənovların anası - yerlim Nəhayət xanım, yenə Şəhid qardaşlar - Əli və İslam Əhmədovların anası, qohumum Sevinc xanım, bakılı şəhid Yusif Budaqovun anası Lətafət xanım, bərdəli şəhid Elməddinin anası Arzu xanım, gəncəli şəhid Ramalın anası İlhamə xanım və xaçmazlı şəhid Davudun anası Validə xanımla görüş zamanı özümü nə qədər toxtaq tutmağa çalışsam da, göz yaşlarıma hakim ola bilməmişəm.

Həmin anlarda özümə həyəcandan yer tapmamışam. Nəhayət və Sevinc xanım hər iki oğlunu savaşda itirib. Digərləri isə indi tək-tənha, dərdləri ilə baş-başa qalıblar. Elməddin uşaq olarkən atası onları tərk edib. Arzu xanım övladını min-bir əzabəziyyətlə böyüdüb. Güclə ev tikiblər. Elməddin ona deyirmiş ki, bundan sonra xoşbəxt olacağıq. Arzu xanımın mənimlə söhbət zamanı söylədiyi "Oğlumsuz bu evi neyləyirəm?" sözləri ilə sanki sinəmə ox sancıldı. Bərdə şəhidləri, o cümlədən Elməddin barədə yazını böyük əziyyət çəkərək, ürək ağrısı ilə yazdım, hətta bir anlıq səhhətim pisləşdi. Elə bildim ki, bu dəqiqə canım ağzımdan çıxacaq, həyatımı itirəcəyəm. O dərəcədə təsirlənmişdim... Belə anlarda söz lal olur, gördüklərin qarşısında aciz qalır.

**- Şəhid və qazi ailələrinə dəstək istiqamətində bundan sonra nə etməyi düşünürsünüz?**

- Mən adətən plansız, proqramsız işləyirəm. Ani qərarlar qəbul edirəm. Amma nə qədər ki, taqətim, canımda can var, bu işimi davam etdirəcəyəm, Şəhidlərimiz qarşısında mənəvi borcumu qismən olsa da, yerinə yetirməyə çalışacağam. Əgər istəmədən həmsöhbətlərimdən, şəhid ailələrindən, şəhid analarından kiminsə xətrinə dəymişəmsə, xətaya yol vermişəmsə, onlardan üzr istəyir, halallıq xahiş edirəm. Hamısının qarşısında baş əyirəm. Hamısı mənim əzizlərim, doğmalarımdır. Özümü onlardan biri hesab edirəm, artıq özümü onlarsız təsəvvür edə bilmirəm.

**Kənan Novruzov**



# “Mən işdən kimsəni qırmadan öz ərizəmlə ayrıldım"

## Xoşqədəm Hidayətqızı: “Murad Dadaşov qadınla savaşacaq kişiliyə sahib biri deyil ki, ona görə istefa verim”

**Aparıcı Xoşqədəm Hidayətqızı ”Xəzər” TV-dən ayrılması ilə bağlı yayılan xəbərlərə aydınlıq gətirib. “Şərq”in məlumatına görə, o, bu barədə instaqram profilində yazıb:**

”Düz bir il əvvəl mənim üçün əziz olan ”Xəzər” TV-dən ayrılmaq istədim. Həmin ərəfədə baş verən hadisələr məni dayandırdı. Noyabr ayında böyük haqsızlıqla üz-üzə qaldığım vaxt belə kanaldan ayrılmağı qeyri-etik saydım. Bir TV-ni sezonun ortasında pis vəziyyətdə qoymaq peşəkarlığa sığmazdı. Məhz buna görə sezon bitənə qədər gözlədim. 23 iyul veriliş bitdi və növbəti həftə artıq rəhbərliyə ayrılmaq istədiyimi bildirdim. Bütün dünyada olduğu kimi, mən də sezon bitəndə çalışmaq istəmədiyimi açıqladım.

Təbii ki, rəhbərlik bununla razı olmadı, mənə düşünmək üçün vaxt verdi, istəklərimin hamısını nəzərə alacağını bildirdi. Lakin öz istəyimlə bu qərarı verdim.

Təbii ki, bir telekanal üçün 3 saatlıq efir vaxtını dolduran, TV-yə böyük pullar, reytinq gətirən layihəni itirmək asan deyil. Bütün dünyada bu cür ayrılmalar var, TV-lər transferlər edirlər. Ən çox izlədiyimiz türk kanallarına diqqət edin. Hər kəsə bəllidir ki, ”Səni axtarıram” mənə aiddir, rəhbəri olduğum layihədir.

Yəni hansısa bir TV-nin layihəsi deyil ki, müəllifi calışdığı kanalla yolların ayıranda veriliş bağlandı və s. yazaq. Çox da uzağa getməyək. Murad Dadaşovun müəllifi olduğu ”Maşın Şou” Lider TV-də başladı, ATV-yə getdi, daha sonra ANS-də, təkrar ATV-də layihəsini davam etdirdi. Burada nə var? Bu fotonu bilərək paylaşıram ki, biləsiniz, körpələrimlə birlikdə böyüməsi üçün fədakarlıq göstərdiyim, əmək sərf etdiyim kanaldan ayrılmaq heç də asan deyil. Onlar yeni doğulmuşdu, Arını xəstəxanada qoyub, Tümenə yeni sezon üçün çəkilişə getdim. 4 aylıq idilər, onları yalnız gecə işdən gələndə görürdüm. İşə başladığım kanalın ovaxtkı durumunu hər kəs çox yaxşı bilir. Düşünün, bu layihəni tamaşaçımın olmadığı bir məkanda baxımlı etməklə yanaşı TV-nin reytinqini qaldırmaq, sponsorlar cəlb etmək üçün nə qədər çalışdım. Amma elə şeylər olur ki, insan heç nəyə baxmır. Mən kimsəni qırmadan öz ərizəmlə ayrıldım”.

**X.Hidayətqızı həmçinin ”Xəzər” TV-nin rəhbəri M.Dadaşovla münasibətlərinin yaxşı olduğunu söyləyib:** ”Murad müəlllim mənim üçün əzizdir. Elə olmasaydı, ən şad günümü ona etibar etməzdim. Biz hər ikimiz zəhmətimizlə bir yerə gəlmiş insanlarıq. Rəhbərim olduğu müddətdə münasibətlərimiz qarşılıqlı hörmət və dostluq üzərində qurulub. Noyabr ayında haqsızlıqla qarşılaşanda mənə dəstək verən doğmalarımdan biri olub. M.Dadaşov qadınla savaşacaq kişiliyə sahib biri deyil ki, ona görə istefa verim. Mənim ayrılmam rəhbərliklə, Murad müəllimlə əlaqəli deyil. Ayrılmaq düşmən olmaq mənasına gəlmir. Axı niyə istər işdə, istər ailədən ayrılarkən düşmənlik kimi anlayırıq, o tərəfə çəkirik? Türkiyə televiziyalarında da bu hallar yaşanır və çox da normal qarşılanır. Bu il Seda Sayan da dostu Acunun telekanalından ayrılıb, digərinə keçdi. İndi düşmən olsunlar? Nə isə, çox vaxtınızı almayım, rahat olun mən özüm ayrılmışam və hazırda istirahət edirəm”.

**Samirə**



# Doğuş ölümdən döndü

### Müğənni sualtı dalğıc edərkən boğulma təhlükəsi yaşayıb

**Aparıcı Xoşqədəm Hidayətqızının həyat yoldaşı, türkiyəli müğənni Doğuşun başına iş gəlib.**

Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, müğənni Antalyada ailəsi ilə birgə yaxtada gəzintiyə çıxıb. Doğuş sualtı dalğıc edərkən boğulma təhlükəsi yaşayıb. Müğənninin hələ də sudan çıxmadığını görən kapitan narahat olub və onun arxasınca dənizə girərək Doğuşu xilas edib.

Sənətçi dərhal xəstəxanaya aparılıb. Həkim onun vəziyyətinin yaxşı olduğunu bildirib:

“Bir dəqiqə gec gəlsəydi, fiziki xəsarət və ya ölümlə nəticələnə bilərdi”.



# Zümrüd Bədəlova boşanmayıb

### Aparıcı dedi-qodulara cavab vermək istəmir

**Aparıcı Zümrüd Bədəlova ”Onun sirri” proqramında həyatı ilə bağlı şok faktları açıqlayıb.**

**“Şərq” xəbər verir ki, o, ”Həyat yoldaşınızdan müflis olduğu üçün ayrıldığınız doğrudurmu” sualına gəlincə bunları söyləyib:**

”Cavab verməkdən imtina edirəm. Mən o insanla hələ də evliyəm. Rəsmi nikahımız var, boşanmamışam. Amma ayrı yaşayırıq. Bu dedi-qodulara, suallara cavab vermək istəmirəm. Soyadım Bədəlovadır. Onun soyadını mənə verməidlər. Rəsmi nikahımızın belə harada olduğunu bilmirəm, hər şey Rusiyada oldu. Yeddi ildir bu durum belə davam edir”.

**Samirə**

# Cahil insanlara inanmayın, peyvənd olunun!

## Mehriban Xanlarova: “Bu xəstəliyə inanmayanlar üçün şəxsən öz ailəmdən misal çəkəcəm”



**”Əziz xalqım, bacardığınız qədər tez peyvənd olunun. İnternetdə yayılan miflərə, yalan məlumatlara inanmayın. Unutmayın ki, peyvənd virusa yoluxduqdan sonra ağırlaşmanın qarşısını alan ən effektiv üsuldur”.**

”Şərq” xəbər verir ki, bu sözləri instaqram profilində əməkdar artist Mehriban Xanlarova yazıb. Aktrisa deyib ki, inkişaf etmiş ölkələrdə əhalinin çox hissəsi peyvənd olunub: ”Cahil insanların psixologiyasına tabe olmayın. Çip, sonsuzluq, zombi və sair kimi miflər ancaq geridə qalmış cəmiyyətlərdə yayılır. Onsuz da təcili yardım xidməti normal işləmir. Sual yaranar ki, niyə? Xalq artisti Zümrüd Məmmədovanın bacısı koronavirusa yoluxdu. Zümrüd xanım açıqlama verdi ki, bacımın koronavirusa yoluxduğunu öyrəndik:

”Səhhəti pisləşdi, xəstəxana ilə danışdıq ki, aparaq yerləşdirək. Dedilər, xəstəxanaya təcili yardım gətirməlidir. Təcili yardıma dəfələrlə zəng etdik, ”gəlirik” deyib, gəlmədilər. Bacım onların günahı ucbatından vəfat etdi”. İndi təsəvvür edin ki, Xalq artistinin ailəsinə qarşı bu cür məsuliyyətsiz davranırlarsa, sıravi vətəndaşların probleminə necə yanaşırlar?! Bu xəstəliyə inanmayanlar üçün şəxsən öz ailəmdən misal çəkəcəm. Qardaşımın həyat yoldaşı koronaya yoluxdu və peyvənd olunmadığı üçün çox ağır keçirərək, dünyasını dəyişdi. Kim COVİD-19 virusunun olduğuna inanmırsa, xəstəxanalara gedib öz gözü ilə bu xəstəliyə yoluxanların hansı əziyyəti çəkdiklərini görə bilər.

Türkiyənin məşhur aktrisası Ezgi Mola bir neçə ay əvvəl peyvənd vurdurub.

Yaxın günlərdə açıqlama verdi ki, test vermişəm pozitiv çıxıb, amma vaksin olunduğum üçün xəstəliyi yüngül formada keçirirəm. KOVİD peyvəndi xəstəliyi yüngül formada keçirmək üçündür. Şəxsən mən, Mehriban Xanlarova vurdurmuşam və sizlərə də məsləhət görürəm. Çox təəssüf ki, dövlət xəstəxanalarında pullu müalicələr mövcuddur, reanimasiya şöbələri dolur, ora gedənlərin hamısı effektiv müalicə ala bilmirlər. Ona görə özünüzü qoruyun və peyvənd olunun. Hansı peyvəndi vurdurmaq istəyirsinizsə, araşdırın və özünüz qərar verin”.

**Samirə**



# "Əhalinin çoxalmasının qarşısı alınmalıdır"

## Aydın Xan Əbilov: "Planetdə uzağı bir milyard civarında insanın yaşaması üçün şərait var. Əks halda Yer kürəsi yaxın gələcəkdə öz-özünü məhv edəcək"

"Dünyanın aparıcı düşüncəli adamlarını ən çox narahat edən məsələ planetdə ümumi hərarətin qalxması və bunun fəsadlarıdır. Bununla bağlı feysbukda öz fikirlərimi bölüşdüm. Ola bilər ki, mübahisəli olsun, birmənalı qarşılanmasın.

Amma dünyanın beyin mərkəzlərinin hesabatlarına əsasən, onlardan müəyyən mülahizələri analiz edərək səsləndirilən fikirlərdir".

**Bu sözləri "Şərq"ə açıqlamasında Vətəndaş Cəmiyyəti Alyansının rəhbəri, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, Prezident təqaüdçüsü, kitabxana.net, yenimedia.net portallarının təsisçisi, analitik-ekspert, yazıçı-kulturoloq Aydın Xan Əbilov söyləyib.** O, son zamanlar meşə yanğınlarının, zəlzələ kimi fəlakətlərin baş verdiyini deyib: "Bir çoxu təbiət hadisəsi kimi qəbul edilsə də, tektogenik qəzalar və insan əməli nəticəsində baş verənlər də olur. Sözügedən fikirlərdə müxtəlif obyektiv və subyektiv səbəblərdən planetimizin boğulması əsas götürülür. Həmçinin insan sayının azaldılması təklif edilib. Bu da bir çox savadsız, analitik təfəkkürü olmayan, iki kəlmə danışa bilməyən, ömründə bir kitab oxumayan şəxslərin etirazına səbəb ola bilər. Lakin bunu yalnız mən demirəm. Amerika Birləşmiş Ştatları başda olmaqla ən böyük ölkələrin düşüncə adamları, planetdə qlobal istiləşməyə və böhrana qarşı yaradılmış şəbəkənin nümayəndələri, beyin mərkəzlərinin liderləri, tanınmış ekspertlər deyirlər. Hesab edilir ki, planetdə uzağı bir milyard civarında insanın yaşaması üçün şərait var. Əks halda Yer kürəsi yaxın gələcəkdə özözünü məhv edəcək, Mars və Venera kimi səhralığa çevriləcək. Biz 16 yaşlı qızların ərə verilməsini müzakirə edirik. Dünyanın hər yerində qloballaşma və onun zərərli tərəfləri, sənayeləşmə, insan əməllərinin planetin məhvinə aparma nəticələri haqda düşünülür, kosmosa raketlər göndərilir. Bizdə hələ dar düşüncəli insanların fikirləri ilə razılaşırlar, beyin düşüncə adamlarının sözlərinə önəm vermirlər. Kür, kanallar və çaylar quruyub. Şirin su ilə əlaqəli problemlər yaşayırıq, meşə yanğınları baş verir. Eyni zamanda total səhralaşma gedir. Bunun qarşısını yalnız dünyanın düşüncə adamlarını birləşdirib, bir çox qadağalar qoymaqla, Paris iqlim konvensiyasına qoşulub, onun bütün bəndlərini yerinə yetirməklə almaq olar. Həmçinin əhalinin çoxalmasının qarşısı alınmalıdır. İndi Azərbaycanda uşaq pulu istəyirlər. Fikirləşmirlər ki, verilməyib əhali belə artır. Əgər uşaq pulu ödənilsə, necə olacaq? Afrika və şərq ölkələrində əhalinin sürətlə artımı var və acından ölürlər. Onlar inkişaf etmiş ölkələrə yalvarırlar ki, yemək verin. Əhalinin sayını artırmayın, təbii resurslarınızı məhv etməyin. Sonra da xahiş etməyin ki, qanuni və əyri-qanuni doğulan uşaqlarınızı dolandırsınlar. Ona görə, biz sərt mövqe ortaya qoymuşuq. Bu, dünyanın aparıcı beyin mərkəzlərinin və düşüncə adamlarının mövqeyidir. Mən də onları dəstəkləyirəm".

**Samirə**

# HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Bakı şəhəri Səbail rayon İcra Şöbəsinin 24.08.2021-ci il tarixli, 174677/2021-16-22/6519 saylı sifarişi ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi tərəfindən "ELEKTROPARK" MMC-yə məxsus siyahıya alınmış əmlaklar açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 07 sentyabr 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti 4.610 (dörd min altı yüz on) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 230,5 (iki yüz otuz manat əlli qəpik) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

(Əlavə olaraq "Qeyd"ə bax).

-------------------------------------------

Bakı şəhəri Səbail rayon İcra Şöbəsinin 24.08.2021-ci il tarixli, 206541/2021-16-22/6520 saylı sifarişi ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi tərəfindən "Terra Group" MMC-yə məxsus siyahıya alınmış əmlaklar açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 07 sentyabr 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti 300 (üç yüz) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 15 (on beş) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

(Əlavə olaraq "Qeyd"ə bax).

---------------------------------------------

Bakı şəhəri Səbail rayon İcra Şöbəsinin 20.08.2021-ci il tarixli, 160512/2021-16-22/6522 saylı sifarişi ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi tərəfindən Şahverdiyev Həsən Yəhya oğluna məxsus siyahıya alınmış əmlaklar açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 07 sentyabr 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti 1150 (bir min yüz əlli) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 57,5 (əlli yeddi manat əlli qəpik) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

(Əlavə olaraq "Qeyd"ə bax).

-------------------------------------------------

Bakı şəhəri Səbail rayon İcra Şöbəsinin 20.08.2021-ci il tarixli, 149839/2021-16-22/6523 saylı sifarişi ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi tərəfindən Azərbaycan Bodibildinq Federasiyasına məxsus siyahıya alınmış əmlaklar açıq hərraca çıxarılmışdır.

Hərrac açıq hərrac qaydasında keçirilməklə 07 sentyabr 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti 2.100 (iki min yüz) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 105 (bir yüz beş) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir. Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

(Əlavə olaraq "Qeyd"ə bax).

-------------------------------------------------

QEYD: Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) saat qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti.

**Hərracın təşkilatçısı**
**"Əmlak Hərrac Mərkəzi" MMC**

*Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.*
*Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com*
*rəsmi internet saytı: e-herrac.com*

Azərbaycan Texniki Universitetinin Həmkarlar İttifaqı komitəsi dossent İsgəndərov Rafiq müəllimin həyat yoldaşı
**Validə xanımın vəfatından**
kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verirlər.
**Allah rəhmət eləsin!**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1628



## Cenifer geyimindən etiketi çıxarmağı unutdu

### Bunun hansı məqsədlər üçün edildiyi açıqlanmır

**ABŞ-ın tanınmış müğənnisi və aktrisası Cenifer Lopezin başına iş gəlib.**

Lent.ru xəbər verir ki, bu haqda onun paylaşımından sonra bəlli olub.

Belə ki, Jlo "Dolce Gabbana" brendinə məxsus üst geyimində etiketi çıxarmayıb.

Bunun hansı məqsədlər üçün edildiyi açıqlanmır. Çox böyük ehtimalla həmin paltar reklamdan sonra satışa çıxarılacaq. Bu baxımdan etiketə toxunulmayıb.

## Arı içki ilə birlikdə ağzına girdi

### Restorandakı içkidən içdi - öldü



**Türkiyədə Vural Şenalp adlı şəxs restoranda sifariş etdiyi içkidəki arının boğazından sancması ilə həyatını itirib.**

Milli.Az xəbər verir ki, 51 yaşlı, 1 uşaq atası Vural Şenalp dostları ilə birlikdə yemək yemək üçün restorana gediblər. O sifariş etdiyi sudan içərkən boğazında acılıq hiss edib. Fərqində olmadığı arının içki ilə birlikdə ağzına girdiyini bilərkən dərhal dənizə atlayıb. Lakin bir müddət sonra hərəkətsiz halda dənizdən çıxarılıb.

Yayılan xəbərlərə görə, dənizdən çıxarılan Şenalp 10 dəqiqəlik ürək masajı ilə özünə gəlib. Dərhal təcili tibbi yardımla xəstəxanaya aparılıb. Lakin iki gün reanimasiyada qalsa da onun həyatını xilas etmək mümkün olmayıb. /medicina.az

## Toyu təxirə saldılar







**Nikah masasına əyləşməyə hazırlaşan Türkiyənin varlı cütlüklərindən olan Hacı Sabancı ilə Nazlı Kayıya ağır itki üz verib.**

Axşam.az türk mediasına istinadən xəbər verir ki, Nazlının ögey atası Kaan Dimili dünyasını dəyişib. Cütlük ölüm xəbərinin ardından toylarını ertələməli olub.

*Qeyd edək ki, uzun illərdir eşq yaşayan Hacı və Nazlı ötən il nişanlanıb.*



# Peyvənd vurduranlara pulsuz kabab!

### Türkiyənin Qaziantep şəhərində kababçı maraqlı addım atıb









**Əhali arasında peyvənd olunanların faizi baxımından ən aşağı göstəriciyə sahib bölgədə birdənbirə faiz yüksəlməyə başlayıb.** Bunun səbəbi bilinəndə, hər kəs yaxşı mənada heyrətə düşüb. İstifadə olunan metod hətta bəyənilib də. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, Türkiyənin Qaziantep şəhərində bir yeməkxana sahibi peyvənd kampaniyasına əməli dəstək verib. Yeməkxana sahibi "peyvənd olunanlar, arayışla gəlsin, pulsuz kabab yesin", elanı verib. Bunu eşidibbilən yeməkxanaya axın edib. Yeməkxanaya gələnlər peyvənd olunmalarına dair kart təqdim edib, pulsuz kababa qonaq olublar. Bildirilir ki, Qaziantep peyvənd olunanların sayına görə ən aşağı göstəriciyə sahib şəhərlər sırasında olub. Pulsuz kabab olayından sonra isə bu şəhərdə peyvənd vurduranların sayı əməlli-başlı artmağa başlayıb. Yeməkxana sahibinin bu addımı bir tərəfdən peyvənd kampaniyasına dəstəkdirsə, bir tərəfdən də sahibkarların ziyana düşməməsi üçün atılan addımdır. Məlum məsələdir ki, yoluxma sayı artdıqda, hökumət sərt karantin tədbirlərinə əl atır, yeməkxanalar, restoran və kafelərin fəaliyyəti dayandırılır. Yeməkxana sahibi pulsuz kabab təklif etməklə, həm də sahibkarlıq maraqlarını qorumuş olur. Yeməkxana sahibi Erkan Ayık pulsuz kabab kampaniyasını bu məqsədlə təşkil etdiyini, yoluxma sayının artmasından ən çox qida sektorunun zərər gördüyünü bildirib.

**Məlahət**

## 2 min illik çiçək buketi

### Meksikada tapılan çiçək buketindən ayinlərdə istifadə edilib



**Meksikada arxeoloqlar 2 min illik çiçək buketi üzə çıxarıb. Arxeoloqlar bu fikirdədir ki, çiçək buketlərindən tunellərdə təşkil olunan ayinlər zamanı istifadə edilib.**

"Şərq" "İnterpendent Türkcə"yə istinadən xəbər verir ki, 2 min illik çiçək buketi Meksikanın antik Teotihuacan şəhərindəki ən böyük üçüncü piramida "Tüklü İlan" məbədgahında torpaq qatının 12 metr dərinliyində tapılıb. Arxeoloqlar hesab edir ki, bu cür çiçək buketlərindən o dönəmlərdə keçirilən ayinlər zamanı istifadə edilirmiş. Tapıntını Meksika Beynəlxalq Antropoloji və Tarix İnstitutunun arxeoloqları üzə çıxarıb. Arxeoloqlar bu qədər yaxşı qorunmuş bir bitki növünə ilk dəfə rast gəlindiyini deyir: "Çox yaxşı mühafizə olunmuş 4 buket var. Əlavə bir neçə kiloqram kömür qalıntısı da tapılıb. Bu da çiçəklərin atəş yandırıldığı, tonqal qalandığı bir ayin zamanı istifadə edildiyini təsdiq edir. Çiçək buketləri 2 min ildir iplə bağlı halda qalmaqdadır".

**Məlahət**

## Hazal Kayanın yeni imici

### Aktrisa saçlarını sarı rəngə boyayıb





**Məşhur aktrisa Hazal Kaya imicini dəyişib.**

Axşam.az türk mediasına istinadən xəbər verir ki, aktrisa saçlarını sarı rəngə boyayıb.

Fotolarını İnstaqram hesabında paylaşan Hazalın yeni imici izləyiciləri tərəfindən bəyənilib.